AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

29 NOYABR 2018-ci il CÜMƏ AXŞAMI № 267 (6300) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Azərbaycan müəllimlərinin XV qurultayının iştirakçılarına

Hörmətli qurultay iştirakçıları!

Əziz müəllimlər və təhsil işçiləri!

Sizi - Azərbaycan müəllimlərinin XV qurultayının iştirakçılarını səmimi salamlayır, ölkəmizin bütün təhsil işçilərinə ən xoş arzularımı yetirir, hər birinizə çətin və şərəfli fəaliyyətinizdə yeni nailiyyətlər arzu edirəm.

Müəllimlərin bu ali məclisinin Azərbaycan Xalq Cümhuriyyətinin əlamətdar 100 illik yubileyi ilə bir vaxta təsadüf etməsinin rəmzi mənası vardır. Ölkəmizdə anadilli təhsil sistemi və təhsil quruculuğunun təməli məhz Xalq Cümhuriyyəti dövründə qoyulmuşdur. Xalq Cümhuriyyətinin varisi müstəqil Azərbaycan bu gün dinamik inkişaf tempinə malik dövlətlərdəndir. İqtisadiyyatımızın tərəqqisi ölkəmizdə təhsilin inkişafına da öz müsbət təsirini göstərmişdir. Sosial siyasətimizin əsas prioritetlərindən biri ölkəmizdə zamanın çağırışlarına cavab verən və beynəlxalq standartlara uyğun milli təhsil sisteminin qurulmasıdır.

"Bilik iqtisadiyyatı"na keçid və ölkənin modernləşməsi üçün həlledici amil kimi insan kapitalının inkişafını təmin edəcək "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın icrasına başlanılmasından beş il keçir. Bu müddətdə ölkəmizdə müasir təhsil quruculuğu istiqamətində uğurlu addımlar atılmış və Azərbaycan təhsilinin dünya təhsil sisteminə inteqrasiyası sürətlənmişdir. Ümumi təhsildə yeni proqramların tətbiqi başa çatdırılmış, tədrisdə müasir texnologiya və innovasiyaların istifadəsi genişlənmiş, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" müvəffəqiyyətlə başa çatmış və bu günlərdə yeni "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" qəbul olunmuşdur.

Müəllim əməyinin stimullaşdırılması tədbirləri nəticəsində cəmiyyətimizdə müəllimin nüfuzu yüksəlmiş, istedadlı gənclərin müəllimlik peşəsinə marağı əhəmiyyətli dərəcədə artmışdır. Qazanılan uğurlar dövlətin təhsil sahəsinin davamlı inkişafına diqqət və qayğısının təzahürü, eyni zamanda, Azərbaycan müəlliminin fədakar əməyinin bəhrəsidir.

Ali məclisinizin təhsil sahəsində ötən dövr ərzindəki fəaliyyəti lazımınca dəyərləndirərək gələcək strateji hədəfləri düzgün müəyyənləşdirəcəyinə və ölkənin intellektual potensialını təhsilin inkişafı məqsədi ətrafında səfərbər edəcəyinə əminəm. İnanıram ki, müəllimlərimiz bundan sonra da vəzifələrinin öhdəsindən layiqincə gələcək, təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi, ölkədə müasir təhsil sisteminin qurulması və insan kapitalının formalaşmasına töhfələr verəcək, gənc nəsli vətənpərvərlik, milli-mədəni irsə bağlılıq və azərbaycançılıq məfkurəsi ruhunda yetişdirəcək, yüksək peşəkarlığa və səriştəliliyə malik, rəqabətə davamlı mütəxəssislər hazırlanması üçün əzmlə çalışacaqlar.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 27 noyabr 2018-ci il.**

## T.T.Salahovun 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan təsviri sənətinin inkişafında xüsusi xidmətlərinə görə Tahir Teymur oğlu Salahov 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 28 noyabr 2018-ci il.**

*Belarusun dövlət televiziyası:*

# Elə bir sahə yoxdur ki, Belarusla Azərbaycan arasında əlaqə qurulmasın





**Belarusun dövlət televiziya kanalı Azərbaycanla münasibətlərə dair reportaj yayımlayıb.**

AZƏRTAC xəbər verir ki, reportajda Azərbaycan-Belarus əlaqələrinin inkişafı barədə danışılır.

Bildirilir ki, Bakı ilə Minsk yalnız dost deyillər, həm də bütün sahələrdə sıx əməkdaşlıq edirlər. Azərbaycan və Belarus prezidentləri İlham Əliyev və Aleksandr Lukaşenko arasında dostluq münasibətləri mövcuddur. Azərbaycan və Belarus etibarlı tərəfdaşlar, bir-birinə diplomatik qarantlardır.

"İki ölkə arasında dostluq münasibətlərinin əsası 25 il əvvəl qoyulub və o vaxtdan bu dövlətlər yaxın qohumlar kimi mehribandırlar. Elə bir sahə yoxdur ki, Belarusla Azərbaycan arasında əlaqə qurulmasın", - deyə reportajda vurğulanır.

Telekanalın jurnalisti, həmçinin Azərbaycanın və Belarusun birgə istehsal müəssisələri, birlikdə həyata keçirilən layihələr, ölkəmizin turizm potensialı, Bakının gözəlliyi haqqında ətraflı məlumat verir.

**AZƏRTAC**

# Aleksandr Lukaşenko İlham Əliyevi "daim etibar edilməli olan əsl dost" adlandırır

**Belarusun İctimai Televiziyası Azərbaycan Prezidenti İlham Əliyevin Minskə səfərindən geniş reportaj yayımlayıb.**

AZƏRTAC xəbər verir ki, reportajda Aleksandr Lukaşenkonun İlham Əliyevi necə böyük hörmətlə qarşılayıb-yola saldığı diqqətə çatdırılır. Qeyd olunur ki, Belarus və Azərbaycan aralarında iki min kilometrdən artıq məsafə olmasına baxmayaraq, çox yaxın tərəfdaşlardır. Belarus Prezidenti azərbaycanlı həmkarını "daim etibar edilməli olan əsl dost" adlandırır.

"Belarus və Azərbaycan bütün istiqamətlərdə əməkdaşlığa hazırdırlar, dost ölkələr kimi bir-birinə kömək edirlər. Azərbaycan Prezidentinin bu səfəri dövlət başçılarının dostluğunu bir daha sübut etdi", - deyə aparıcı vurğulayır.

Reportajda Azərbaycan ilə Belarus arasında münasibətlərin inkişafından ətraflı bəhs olunur. Qeyd edilir ki, Belarus üçün ağır vaxtlarda Azərbaycan daim ölkəyə dəstəyini nümayiş etdirib. Rusiya ilə enerji mübahisələri zamanı isə Belarusa ekspress-kreditlə yardım edib.

Prezident İlham Əliyevin səfər çərçivəsində Minskdə fəaliyyət göstərən Azərbaycan Ticarət Evinə də baş çəkdiyi qeyd edilən reportajda ölkəmizin milli məhsulları haqqında məlumat verilir. Eyni zamanda, Gəncə Avtomobil Zavodunda Belarusla birgə traktorun yığılması, Bakıda Belarus məhsullarının satışı ilə bağlı məlumatlar diqqətə çatdırılır.

**AZƏRTAC**




## Xalq rəssamı Tahir Salahova

Hörmətli Tahir müəllim!

Sizi - dövrümüzün böyük sənətkarını və tanınmış ictimai xadimi 90 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm. Sizə möhkəm cansağlığı və fəaliyyətinizdə uğurlar arzulayıram.

Müasir rəssamlıq məktəbinin görkəmli nümayəndəsi olaraq Siz uzunmüddətli səmərəli və bənzərsiz yaradıcılığınızla zəngin mədəniyyət salnaməmizə yeni səhifələr yazmış, milli sənət xəzinəmizin qızıl fondunda özünə həmişəlik layiqli yer tutan əsərlərinizlə Azərbaycan təsviri sənətinə geniş şöhrət qazandırmısınız.

"Sərt üslub"un banilərindən biri kimi yaratdığınız sənət nümunələrində insan taleyi vasitəsilə dünyaya, həyata baxışınız və fəlsəfi düşüncələriniz rənglərin ən incə çalarları ilə dolğun ifadəsini tapmışdır. Azərbaycan incəsənətinin çoxəsrlik ənənələrini Avropa boyakarlıq məktəbinin nailiyyətləri ilə birləşdirən, mövzu, forma, janr əlvanlığı və estetik kamilliyi ilə seçilən ecazkar rəsmləriniz ülvi bəşəri dəyərlər və ali məqsədlər naminə humanist fikirlər təlqin edir. Heyrətamiz portret yaradıcılığınız sənətsevərlər tərəfindən daim rəğbətlə qarşılanmışdır. Vətənə məhəbbət dolu silsilə lövhələr, peyzajlar və natürmortlarınızda insanın təbiətlə dərin məna kəsb edən ahəngdar mənəvi vəhdətini əks etdirməyə müvəffəq olmusunuz.

Dünyanın mötəbər muzeylərini, məşhur qalereyalarını bəzəyən və şəxsi kolleksiyalarda saxlanılan əsərlərinizin, hər biri hadisəyə çevrilən fərdi sərgilərinizin Azərbaycan mədəniyyətinin ölkə hüdudlarından uzaqlarda təbliğində böyük rolu vardır. Milli rəssamlığın gələcək inkişafı üçün gənc fırça ustalarının yetişdirilməsi sahəsində xidmətləriniz təqdirə layiqdir.

Sizin çoxşaxəli yaradıcılığınız və məhsuldar ictimai fəaliyyətiniz xalqımız və dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. Siz müstəqil Azərbaycan Respublikasının ən ali təltiflərinə - 1998-ci ildə "İstiqlal" və 2008-ci ildə "Heydər Əliyev" ordenlərinə, 2015-ci ildə Heydər Əliyev mükafatına layiq görülmüsünüz. Çoxsaylı beynəlxalq mükafatlarınız da sənətinizə göstərilən ehtiramın parlaq təzahürüdür.

Əminəm ki, mədəniyyətimizin bugünkü simasının müəyyənləşməsində və dünya incəsənətinin inkişafında özünəməxsus mövqeyə malik sənətkar və şəxsiyyət kimi Siz Azərbaycan təsviri sənətinin şöhrətini bundan sonra da yeni zirvələrə ucaldacaqsınız.

*Ən xoş arzularla.*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 28 noyabr 2018-ci il.**

## C.Ə.Qasımova "Əməkdar müəllim" fəxri adının verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında Dövlət Təhlükəsizliyi Xidmətinin təhsil sahəsinin inkişafında xidmətlərinə görə Cəlal Əbil oğlu Qasımova "Əməkdar müəllim" fəxri adı verilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 28 noyabr 2018-ci il.**

## Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Rusiya Federasiyasının İqtisadi İnkişaf Nazirliyi arasında iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi haqqında Sazişin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Rusiya Federasiyasının İqtisadi İnkişaf Nazirliyi arasında iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi haqqında 2018-ci il sentyabrın 1-də Soçi şəhərində imzalanmış Saziş təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Rusiya Federasiyası Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 26 noyabr 2018-ci il.**

## Yardımlı rayonunun Yardımlı-Bozayran-Bürzünbül-Vərgədüz-Sırıq avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** İyirmi min nəfər əhalinin yaşadığı 15 yaşayış məntəqəsini birləşdirən Yardımlı-Bozayran-Bürzünbül-Vərgədüz-Sırıq avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 9,0 (doqquz) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 28 noyabr 2018-ci il.**

# Xronika

## ÖTƏN GÜNLƏRİN TARİXİ ANLARI



*2018-ci il aprelin 11-də keçirilmiş Prezident seçkilərində xalqın böyük istəyi və seçimi ilə möhtərəm İlham Heydər oğlu Əliyev azad, ədalətli, şəffaf və demokratik şəraitdə yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi.*

*Prezidentin Azərbaycana, xalqa sədaqət andı içdiyi uğurlu gündən başlayaraq onun gərgin iş günü tükənməz enerji ilə, çoxcəhətli ictimai-siyasi fəaliyyətlə davam edir.*

*Böyük şəxsiyyət, ümummilli lider Heydər Əliyevin siyasi kursunu, onun keçdiyi şərəfli yolu ləyaqətlə davam etdirən möhtərəm İlham Əliyev hər bir Azərbaycan vətəndaşının prezidentidir. Ölkəmizin həyatında yeni mərhələnin reallaşması onun yorulmaz fəaliyyəti, dərin zəkası, uzaqgörənliyi ilə sıx bağlıdır.*

*İlham Əliyevin gündəlik gərgin əməli fəaliyyəti sayəsində ölkəmizin ictimai-iqtisadi və sosial həyatının misli görünməmiş yüksəlişi bütün dünya ictimaiyyətinin də diqqət mərkəzindədir. Bu gün Azərbaycan böyük yüksəliş yolundadır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il aprel ayının 18-dən başlayan gündəlik fəaliyyəti, səfərləri, görüşləri, çıxışları, nitqləri, məruzələri, müsahibələri və qəbulları ardıcıllıqla yada salınacaq, oxucuların nəzərinə çatdırılacaqdır. Burada həmin "Xronika–ötən günlərin tarixi anları" təqdim olunur.*

**"Respublika".**

Xronika Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının "Azərbaycan Respublikasının Prezidenti: Gündəlik fəaliyyətin xronikası" adlı elektron biblioqrafik göstəricisinin materialları əsasında hazırlanmışdır.

*(əvvəli 20, 21, 25 aprel, 2, 13, 20, 31 may, 8, 24, 30 iyun, 18, 25, 29 iyul, 1, 30 avqust, 1, 2, 4 sentyabr, 3, 4, 5, 6, 7, 9, 14, 21 oktyabr, 4, 25, 27 və 28 noyabr tarixli saylarımızda)*

### 1 noyabr 2018-ci il

○ **Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrlərini qəbul edib.**



### 4 noyabr 2018-ci il

○ **Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının daxili işlər nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

○ **Prezident İlham Əliyev Fələstinin xarici işlər nazirini qəbul edib.**

### 5 noyabr 2018-ci il

○ **Bakı beynəlxalq teatr konfransının iştirakçılarına:** V Bakı beynəlxalq teatr konfransının açılışı münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

○ **Azərbaycan Prezidenti İlham Əliyevin Ağdam rayonuna səfəri:** Ulu öndər Heydər Əliyevin abidəsini ziyarət.

○ **Azərbaycan Prezidenti İlham Əliyevin Ağdam rayonuna səfəri:** Ağdam rayonunda Quzanlı-İmamqulubəyli-Orta Qərvənd-Xındırıstan avtomobil yolunun açılışı olub.

○ **Azərbaycan Prezidenti İlham Əliyevin Ağdam rayonuna səfəri:** Ağdam Muğam Mərkəzi istifadəyə verilib: Prezident İlham Əliyevin çıxışı.

○ **Azərbaycan Prezidenti İlham Əliyevin Ağdam rayonuna səfəri:** "Azərxalça"nın Ağdam filialı Qarabağ xalçaçılıq məktəbinin inkişafına mühüm töhfə verəcək.

○ **Azərbaycan Prezidenti İlham Əliyevin Ağdam rayonuna səfəri:** Ağcabədinin Hindarx qəsəbəsində pambıq sahəsinə baxış.



○ **Azərbaycan Prezidenti İlham Əliyevin Ağdam rayonuna səfəri:** Qarabağ Atçılıq Kompleksində yüksək şərait yaradılıb.

### 6 noyabr 2018-ci il

○ **Kambocanın Kralı Əlahəzrət Norodom Sihamoniyə:** Kamboca Krallığının milli bayramı - Müstəqillik Günü münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

### 7 noyabr 2018-ci il

○ **Prezident İlham Əliyev "Bravo" marketlər şəbəkəsinin yeni hipermarketinin açılışında iştirak edib.**

○ **Şüvəlandakı "Cırtdan" istirahət və sağlamlıq mərkəzi yenidənqurmadan sonra istifadəyə verilib:** Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva açılışda iştirak edib.

○ **Prezident İlham Əliyev Avropa İttifaqının xüsusi nümayəndəsinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

### 9 noyabr 2018-ci il

○ **Prezident İlham Əliyev ABŞ Nəqliyyat Komandanlığının komandanının başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

### 12 noyabr 2018-ci il

○ **Prezident İlham Əliyev Bakıda Elektron Hökumətin İnkişafı Mərkəzinin inzibati binasının açılışında iştirak edib.**

○ **Prezident İlham Əliyev Ümumdünya Antidopinq Agentliyinin prezidentinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

(davamı növbəti saylarımızda)

## "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1294-VQD nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1294-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 26 noyabr 2018-ci il.**

## Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 25-ci bəndini rəhbər tutaraq, "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 935-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının Gömrük Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, N 9, maddə 787; 2014, N 10, maddə 1155, N 11, maddə 1368; 2016, N 11, maddə 1791; 2017, N 3, maddə 339, N 7, maddə 1303, N 8, maddə 1510; 2018, N 1, maddə 30) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 323.1.5-ci və 323.1.6-cı maddələr ləğv edilsin.

**2.** Aşağıdakı məzmunda 323.2-1-ci maddə əlavə edilsin:

"323.2-1. Ekspert qarşısında qoyulan suallar onun xüsusi biliyindən kənara çıxdıqda, yaxud təqdim olunan materiallar və sənədlər rəy verilməsi üçün yararsız olduqda və ya kifayət qədər olmadıqda, ekspert rəy verməkdən imtina edir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 30 oktyabr 2018-ci il.**

## Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq, "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 935-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikası Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 8, I kitab, maddə 583; 2001, N 7, maddə 454, N 9, maddə 576, N 12, maddə 734; 2002, N 5, maddə 249, N 12, maddə 707; 2003, N 8, maddə 425, N 12, I kitab, maddə 671; 2004, N 1, maddə 1, N 11, maddə 887, N 12, maddə 980; 2005, N 2, maddə 61, N 8, maddə 688, N 12, maddə 1081; 2006, N 12, maddələr 1005, 1026; 2007, N 1, maddə 4, N 6, maddə 597, N 8, maddə 745, N 11, maddə 1053, N 12, maddə 1192; 2008, N 7, maddə 602, N 11, maddə 960; 2009, N 7, maddə 506; 2011, N 1, maddə 14, N 7, maddələr 588, 603, N 12, maddə 1115; 2012, N 6, maddələr 500, 513, N 7, maddə 652, N 9, maddə 841, N 12, maddə 1226; 2013, N 2, maddə 91, N 4, maddə 366, N 11, maddə 1278, N 12, maddələr 1483, 1486, 1495; 2014, N 2, maddələr 94, 98, N 6, maddə 608, N 7, maddə 770, N 8, maddə 957, N 10, maddə 1158, N 12, maddə 1525; 2015, N 1, maddə 11, N 12, maddə 1433; 2016, N 2, I kitab, maddə 207, N 3, maddələr 396, 402, N 5, maddə 848, N 6, maddələr 973, 974, 1015, N 7, maddə 1245, N 10, maddə 1603, N 11, maddələr 1752, 1792, 1793, N 12, maddələr 2001, 2037, 2046; 2017, N 2, maddə 146, N 5, maddələr 695, 723, 737, N 6, maddə 1055, N 7, maddə 1304, N 8, maddə 1509, N 12, I kitab, maddələr 2219, 2251, 2270; 2018, N 2, maddə 149, N 5, maddə 863, N 6, maddə 1193, N 7, I kitab, maddələr 1414, 1427) 44.5-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

"44.5. Ekspert qarşısında qoyulan suallar onun xüsusi biliyindən kənara çıxdıqda, yaxud təqdim olunan materiallar və sənədlər rəy verilməsi üçün yararsız olduqda və ya kifayət qədər olmadıqda, ekspert rəy verməkdən imtina edir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 30 oktyabr 2018-ci il.**

## "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1293-VQD nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1293-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 26 noyabr 2018-ci il.**

## Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında 2018-ci il sentyabrın 1-də Soçi şəhərində imzalanmış Saziş təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Rusiya Federasiyası Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 26 noyabr 2018-ci il.**

## Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında idman sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında idman sahəsində əməkdaşlıq haqqında 2018-ci il sentyabrın 1-də Soçi şəhərində imzalanmış Saziş təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Rusiya Federasiyası Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 26 noyabr 2018-ci il.**

## Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Rusiya Federasiyasının Sənaye və Ticarət Nazirliyi arasında sənaye sahəsində əməkdaşlığın möhkəmləndirilməsi haqqında Sazişin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Rusiya Federasiyasının Sənaye və Ticarət Nazirliyi arasında sənaye sahəsində əməkdaşlığın möhkəmləndirilməsi haqqında 2018-ci il sentyabrın 1-də Soçi şəhərində imzalanmış Saziş təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Rusiya Federasiyası Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 26 noyabr 2018-ci il.**

## Azərbaycanın Xalq rəssamı cənab Tahir Teymur oğlu Salahova

Hörmətli Tahir Teymur oğlu.

Bu gün Azərbaycanda əlamətdar tarix - Böyük Ustad, planetar miqyaslı rəssam, gözəl pedaqoq və ictimai xadim Tahir Salahovun yubileyi qeyd edilir.

Hörmətli Tahir Teymur oğlu, Sizi haqlı olaraq təsviri incəsənətin canlı klassiki və bütöv bir üslubun banilərindən biri hesab edirlər. Sizin əsərləriniz dünya mədəniyyəti xəzinəsinə, XX və XXI əsrlərin təsviri incəsənətinin "qızıl fondu"na daxildir. Onlar Azərbaycan rəngkarlığının inkişafında və daha geniş miqyasda bütöv bir dövr təşkil edir. Siz əsərlərinizdə altmışıncı illərin azadlıq ruhunu böyük ustad müdrikliyi ilə, təkrarolunmaz bənzərsizliyi həyatın bütün müxtəlifliyində görmək bacarığı ilə, şəksiz istedadı və ən yüksək ustalığı asanlıqla tanınan müəllif üslubu ilə heyrətamiz şəkildə birləşdirməyə nail olmusunuz. Bu, həqiqətən əsrlər boyu yaşamağa qabil olan əsl sənətdir.

Hörmətli Tahir Teymur oğlu.

Ola bilsin, bunu deyənlər haqlıdır ki, həqiqi sənətkar yaşadığı dünyanı sevməlidir. Sizin yaradıcılıq dünyanız parlaq və rəngarəngdir. Onun fərqləndirici cəhəti doğma ölkənizə - Azərbaycana həqiqi, səmimi vətənpərvərlik, dərin və ülvi sevgidir.

Siz həm çoxsaylı həmvətənlərimiz, həm də dünya yaradıcı ziyalılarının nümayəndələri üçün ən yüksək insani keyfiyyətlərin nümunəsi olmusunuz və belə olaraq qalırsınız. Parlaq erudisiyanız, həssaslığınız və məsuliyyətiniz Sizə ətrafdakı insanların sevgisini və dərin hörmətini qazandırıb. Siz, hörmətli Tahir Teymur oğlu, sadəcə, böyük rəssam deyil, həm də heyrətamiz insan və gözəl müəllimsiniz. Dünya şöhrətli tanınmış ustad olmağınıza baxmayaraq, yaradıcı axtarış cəsarətini itirməmisiniz və yaradıcılıq enerjiniz əvvəlki kimi aşıbdaşır.

Hörmətli Tahir Teymur oğlu.

Yubileyiniz münasibətilə ən səmimi, ürəkdən gələn təbriklərimi qəbul edin. Sizə möhkəm cansağlığı, ailə səadəti, bizi, Sizin böyük istedadınızın pərəstişkarlarını sevindirmək üçün əmin-amanlıq və yeni zəfərlər arzulayıram.

Doğum gününüz mübarək.

*Səmimiyyətlə,*

**Mehriban ƏLİYEVA,**
**Azərbaycan Respublikasının**
**Birinci vitse-prezidenti.**

**Bakı şəhəri, 28 noyabr 2018-ci il.**

# Bakıda Azərbaycan müəllimlərinin XV qurultayı keçirilib













**Noyabrın 28-də Bakı Konqres Mərkəzində Azərbaycan müəllimlərinin XV qurultayı keçirilib.**

**AZƏRTAC xəbər verir ki, qurultay iştirakçıları əvvəlcə Fəxri xiyabana gedərək ümummilli lider Heydər Əliyevin xatirəsini anıb, məzarı önünə gül dəstələri qoyublar.**

**Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarı üstünə də tər güllər düzülüb.**

**Sonra Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə şəhid olan Vətən övladlarının xatirəsi anılıb, məzarları üzərinə güllər qoyulub.**

**Qurultay Azərbaycan Respublikasının dövlət himninin oxunması ilə başlayıb.**




Tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin, Vətənimizin müstəqilliyi uğrunda canlarından keçmiş şəhidlərin və Azərbaycan müəllimlərinin XIV qurultayından ötən dövr ərzində vəfat etmiş təhsil işçilərinin əziz xatirələrini bir dəqiqəlik sükutla yad ediblər.

XV qurultayda Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev, Baş nazirin müavini Əli Əhmədov, Milli Məclis sədrinin müavini Bahar Muradova, dövlət və hökumət rəsmiləri, deputatlar, elm xadimləri və təhsil ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Azərbaycan Prezidenti İlham Əliyevin qurultay iştirakçılarına təbrik məktubunu Prezident Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva oxuyub.

Təhsil naziri Ceyhun Bayramov iştirakçıları salamlayaraq Azərbaycan müəllimlərinin XV qurultayının işinə uğurlar arzulayıb.

Hesabat məruzəsi ilə çıxış edən Ceyhun Bayramov əsasını ümummilli lider Heydər Əliyevin qoyduğu təhsil islahatlarının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb. Nazir bildirib ki, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın qəbulundan ötən 5 il ərzində ölkəmizdə təhsil sahəsində müsbət dinamika müşahidə olunub, bir sıra əsaslı nailiyyətlər əldə edilib. Cari il üçün "Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycan 140 ölkə arasında 69-cu yerdə qərarlaşıb, ölkəmizin mövqeyi 12 indikatordan 9-u üzrə yaxşılaşıb. Həmçinin təhsil indikatorları üzrə ciddi irəliləyişə nail olunub, Azərbaycanın göstəriciləri dünyanın bir sıra inkişaf etmiş ölkələrinin göstəricilərindən də yüksək olub. Belə ki, təhsilin kəmiyyət və keyfiyyət parametrlərinə əsaslanan bacarıqlar indeksi üzrə ölkəmiz ümumilikdə 54-cü yerə, bu kateqoriyanın tərkib hissəsi olan rəqəmsal bacarıqlar üzrə 15-ci, tədrisdə tənqidi düşüncə üzrə 27-ci, bacarıqlı işçilər tapmaq asanlığı üzrə 31-ci, məzunların bacarıqları üzrə 32-ci, ibtidai təhsildə müəllim-şagird nisbəti üzrə 48-ci yerə yüksəlib.

Həyata keçirilən islahatlar nəticəsində ölkədə müəllim peşəsinin nüfuzunun daha da artdığını deyən nazir ötən illər ərzində müəllimlik üzrə müraciət edənlərin sayında 3 dəfəyə yaxın artım qeydə alındığını diqqətə çatdırıb. Qeyd edib ki, son 5 ildə 18 min 136 müəllim işə qəbul olunub, kənd məktəblərində fəaliyyətə başlamış 11 min 600 nəfərə həvəsləndirmə tədbirləri tətbiq edilib.

Nazir bildirib ki, qəbul imtahanlarında 500 və daha çox bal toplayan abituriyentlər arasında müəllim ixtisasını seçənlərin sayı 2090 nəfərə çatıb, bu isə 2014-cü illə müqayisədə 2,3 dəfə artım deməkdir. Ümumi təhsil sistemində çalışan 142 mindən çox müəllimin diaqnostik qiymətləndirilməsi başa çatdırılıb, onların həftəlik dərs yükü 1,5 dəfə, vəzifə maaşı 2 dəfə artırılıb.

Son 5 ildə ölkədə 500-dən çox, 2003-2018-ci illər ərzində isə 3500-dək məktəb binasının tikildiyini və ya əsaslı təmir olunduğunu bildirən nazir bunun nəticəsində 1 milyondan çox şagirdin təlim şəraitinin əhəmiyyətli şəkildə yaxşılaşdırıldığını vurğulayıb.

Tədbirdə çıxış edən Baş nazirin müavini Əli Əhmədov ulu öndər Heydər Əliyevin "Mən dünyada müəllimdən şərəfli ad tanımıram" kəlamını xatırladıb. Baş nazirin müavini deyib ki, insanın taleyi, gələcəyi, öz ailəsinə, cəmiyyətə, dövlətə xidməti valideynlərin verdiyi tərbiyə ilə yanaşı, məktəbin və müəllimlərin verdiyi bilik və vərdişlərdən də bilavasitə asılıdır. Bu baxımdan müəllimlər, sözün həqiqi mənasında, həm insanın, həm cəmiyyətin, həm də dövlətin inkişafında çox mühüm vəzifəni yerinə yetirirlər. Təhsilin inkişafının dövlətin siyasətində əsas prioritetlərdən biri olduğunu vurğulayan Əli Əhmədov qarşıda duran vəzifələrdən də danışıb. O, qurultayın qərarlarının təhsil sisteminin daha da inkişaf etməsinə töhfə verəcəyinə əminliyini bildirib.

Milli Məclis sədrinin müavini Bahar Muradova ötən beş ildə Azərbaycanda təhsil sisteminin uğurlarını yüksək qiymətləndirib. Qeyd edib ki, bu uğurlar, həmçinin Azərbaycan dövlətinin iqtisadi imkanlarının artmasının, regionda və dünyada mövqeyinin möhkəmlənməsinin və əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş təhsil siyasətinin bu gün uğurla davam etdirilməsinin nəticələridir. Bahar Muradova təhsil sahəsində qanunvericiliyin hər zaman diqqət mərkəzində olduğunu qeyd edib.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov dövlətimiz tərəfindən təhsilə və təhsil işçilərinə xüsusi diqqət və qayğı göstərilməsindən danışıb. Bildirib ki, muxtar respublikanın şəhər, rayon və kəndlərində yeni-yeni məktəb binaları tikilib, təhsil müəssisələri müasir avadanlıqlarla təchiz olunub. 2017-2018-ci tədris ili Naxçıvan üçün uğurlu olub. Məzunlardan 1781-i ali məktəblərə, 615-i isə orta ixtisas təhsili müəssisələrinə qəbul edilib.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev ölkəmizdə təhsil sisteminin inkişafında həyata keçirilən dövlət proqramlarından danışıb, Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nı bu sahədə atılmış növbəti mühüm addımlardan biri kimi dəyərləndirib. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri təhsil işçilərinin sosial hüquqları, müəllimlərin sosial problemlərinin həlli, asudə vaxtlarının səmərəli təşkili istiqamətlərində görülən işlərdən danışıb və bu işlərin davamlı olacağını vurğulayıb.

Qurultayda çıxış edən Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə bildirib ki, ölkəmizin dayanıqlı sosial-iqtisadi inkişafı bütün sahələr üzrə yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasını tələb edir. Azərbaycan Prezidenti İlham Əliyevin təhsilə xüsusi önəm verdiyini vurğulayan Məleykə Abbaszadə deyib ki, respublikamızda bu sahə dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir.

Dövlət İmtahan Mərkəzinin fəaliyyəti barədə ətraflı məlumat verən DİM Direktorlar Şurasının sədri bildirib ki, bu qurumun vəzifəsi ölkəmizdə həyata keçirilən mərkəzləşdirilmiş imtahanların təşkili və onun keyfiyyətinin təmin olunmasından ibarətdir. Bu ilin ötən 10 ayı ərzində DİM-in apardığı imtahanlarda ümumilikdə 641 min 517 nəfər iştirak edib. Bir sıra dövlət qurumlarının nümayəndələri ilə yanaşı, müxtəlif tədris müəssisələrindən on minlərlə müəllim Mərkəzin əməkdaşları ilə birlikdə imtahanların idarə olunmasında iştirak edib.

Məleykə Abbaszadə əhaliyə DİM tərəfindən 7 milyondan çox elektron xidmət göstərildiyini diqqətə çatdırıb. Bu o deməkdir ki, imtahanda iştirak edən hər bir şəxs ən azı 10 dəfə DİM-in elektron xidmətlərindən faydalanıb.

Dövlət İmtahan Mərkəzinin tədris prosesində müəllimlərə dəstək vermək üçün bir sıra tədbirlər reallaşdırdığını bildirən DİM Direktorlar Şurasının sədri, eyni zamanda, bu il Bakı şəhəri üzrə 272, on dörd rayonda 60 elmi-metodiki seminarın təşkil olunduğunu vurğulayıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov ümummilli lider Heydər Əliyevin təhsil sahəsinə daim böyük diqqət göstərdiyini, Ulu Öndərin ideyalarının Prezident İlham Əliyev tərəfindən əzmlə həyata keçirildiyini bildirib.

Azərbaycanın bir çox istiqamətlərdə regional və qlobal liderə çevrildiyini qeyd edən rektor son 15 ildə ölkəmizdə davamlı və inklüziv inkişaf üçün iqtisadi baza yaradıldığını söyləyib. Bildirib ki, Azərbaycan son illərdə bir çox davamlı inkişaf göstəriciləri və sosial indikatorlara görə "Böyük iyirmilik" və "Böyük yeddilik" ölkələrinin əksəriyyətini üstələyir. Respublikamızın inkişaf göstəriciləri bir çox beynəlxalq təşkilatların rəsmi sənədlərində təsdiqini tapıb.

Rektor innovativ inkişaf strategiyasının reallaşdırılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın xüsusi rolunu vurğulayıb. Akademik Urxan Ələkbərov qeyd edib ki, ölkəmizin inklüziv cəmiyyət quruculuğu istiqamətində qazandığı uğurlarının başlıca amili təhsil və insan potensialının formalaşdırılmasıdır. Bütün nailiyyətlərin əsasında bilik, biliyin əsasında təhsil dayanır.

"McKinsey" şirkətinin Azərbaycan nümayəndəliyinin rəhbəri Kadir Sinan Köksoy Azərbaycanda bütün sahələrin, o cümlədən təhsil sisteminin uğurlarını vurğulayıb.

Qurultayda çıxış edən Cəbrayıl rayonu Cocuq Mərcanlı kənd tam orta məktəbinin direktoru Zamin Həziyev rəhbərlik etdiyi təhsil ocağında 100-dək şagirdin biliklərə yiyələndiyini, pedaqoji kollektivin 23 nəfərdən ibarət olduğunu bildirib. O, bu məktəbin Təhsil Nazirliyinin elan etdiyi birinci qrant müsabiqəsinin qalibi olduğunu xatırladıb. "Azərbaycan Prezidentinin bilavasitə diqqət və qayğısının real nəticəsi olaraq müasir infrastrukturun yaradıldığı Cocuq Mərcanlı kəndində hər addımda hiss edilən böyük ictimai-sosial canlanma mövcuddur. Həyat öz axarı ilə davam edir. Artıq üzərindən məcburi köçkün adı götürülmüş xeyli sayda əhalinin yaşadığı kəndimizdə insanların təhlükəsizlik, əmin-amanlıq şəraitində özlərinə rahat məişət qurmaları, əmək fəaliyyəti ilə məşğul olmaları üçün əlverişli imkanlar təmin edilib", - deyən Zamin Həziyev ümumtəhsil sahəsində görülən genişmiqyaslı işlərin Cəbrayıl rayonunda da vüsət aldığını bildirib. Qeyd edib ki, hesabat dövründə rayonun məzunlarından 1181 nəfəri ali məktəblərə qəbul olunub. On bir şagird respublika fənn olimpiadalarında qızıl və gümüş medallar qazanıb. Təkcə ötən il 342 nəfər ali məktəblərə qəbul olunub, həmçinin 29 məzun 600-dən yuxarı bal toplayıb. İki məzun orta məktəbi qızıl medalla başa vurub. Zamin Həziyev növbəti illərdə rayonun uğurlarında şəhid Novruz Aslanov adına Cocuq Mərcanlı kənd tam orta məktəbinin də öz layiqli payı olacağına əminliyini bildirib.

Bakı Slavyan Universitetinin nəzdində Məktəb-Lisey Kompleksinin gənc riyaziyyat müəllimi Nigar Əliyeva ölkəmizdə gənclərin hərtərəfli inkişafına yaradılan geniş imkanlardan söz açıb. Qeyd edib ki, müəllimlik məsuliyyətli olduğu qədər şərəfli, çətin olduğu qədər maraqlı peşədir. Müəllim öyrətməklə yanaşı, daim öz üzərində çalışmalı və özü də öyrənməlidir. Dövrün çağırışlarına cavab vermək və gələcək nəsillərin daha xoşbəxt və daha sağlam yaşaması üçün gənc müəllimlərin mütaliə etməsi, təhlillər aparması, daha yaxşı öyrətmək üçün daha yaxşı araşdırma aparmaları vacib şərtdir.

Çıxışlarda XV qurultayın ölkəmizdə təhsil sisteminin inkişafına mühüm töhfələr verəcəyinə əminlik ifadə olunub, Azərbaycan təhsilinin dünya təhsil sisteminə inteqrasiyası, müəllimin nüfuzunun daha da artırılması ilə bağlı təkliflər irəli sürülüb. Vurğulanıb ki, ölkədə davamlı olaraq aparılan məktəb tikintisi, məktəblərin maddi-texniki bazasının gücləndirilməsi, müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi nəticəsində əməkhaqqı artımı, işə qəbulun şəffaf təşkili bu peşəyə marağı ilbəil artırır.

Qurultayda "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda müəyyənləşdirilmiş hədəflərə nail olunması istiqamətində əldə edilmiş uğurlar, eləcə də 2013-cü ilin dekabrında keçirilmiş Azərbaycan müəllimlərinin XIV qurultayından sonrakı müddətdə təhsil sistemində reallaşdırılmış tədbirlər və islahatlar müzakirə olunub, qarşıda duran yeni vəzifələr müəyyənləşdirilib.

Tədbir çərçivəsində, həmçinin Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə "Əməkdar müəllim" fəxri adına layiq görülmüş və "Tərəqqi" medalı ilə təltif olunmuş 127 nəfər təhsil işçisinə dövlət mükafatları təqdim edilib.

Qurultay işini panel sessiyalarla davam etdirib. "Peşəyönümü işinin təşkili və peşə təhsilinin təbliği" mövzusunda sessiyada son beş ildə ölkəmizdə peşə təhsili sisteminin inkişafından danışılıb. Qeyd edilib ki, peşə təhsilinin maddi-texniki bazasının gücləndirilməsi və genişləndirilməsi istiqamətində dövlətimiz tərəfindən mühüm addımlar atılıb. Prezident İlham Əliyevin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda peşə təhsili ilə bağlı xüsusi müddəalar öz əksini tapıb, həmçinin 2016-cı ildə Peşə Təhsili üzrə Dövlət Agentliyi yaradılıb. Peşə təhsilinin inkişafı ölkənin ixtisaslı kadrlara olan tələbatının ödənilməsi istiqamətində mühüm addımlardan biri kimi səciyyələnir. Ölkəmizdə peşə təhsili sistemində aparılan uğurlu islahatlar, peşə təhsilinin düzgün təbliği nəticəsində bu sahəyə maraq daha da artıb. Təhsil sistemində pedaqoji prosesin tərkib hissələrindən biri peşəyönümü işidir. Bu işin təşkilində ümumi məqsəd cəmiyyətin peşə maraqları və imkanları ilə əmək bazarının tələbatı arasında balansı müəyyənləşdirmək, gəncləri maraq və bacarıqlarına uyğun istiqamətləndirməkdir. Bu baxımdan peşə təhsili müəssisələri peşəyönümü işinin təşkilində və təbliğində yaxından iştirak edir. Peşə təhsili müəssisələrinin rasionallaşdırılması nəticəsində respublikamızda Peşə Təhsili mərkəzləri yaradılıb.

Qurultayın "Ümumi təhsil: bu günə və gələcəyə baxış. Ümumi təhsilin məzmunu", "Ümumi təhsil: bu günə və gələcəyə baxış. Şagird nailiyyətlərinin qiymətləndirilməsi", "Ümumi təhsil: bu günə və gələcəyə baxış. Müəllim və cəmiyyət", "Ümumi təhsil: bu günə və gələcəyə baxış. Ümumi təhsilin idarə olunması", "Ali təhsil: mövcud vəziyyət, perspektivlər", "Təhsildə innovasiyalar" mövzularında panel sessiyalarında ölkəmizdə müvafiq sahələrin inkişafı istiqamətində görülən işlərdən danışılıb, qarşıda duran vəzifələr müəyyənləşdirilib.

Sonda qurultayın qətnaməsi qəbul olunub.

Azərbaycan müəllimlərinin XV qurultayında ümumi təhsil, orta ixtisas və peşə təhsili müəssisələrindən 1400-ə yaxın, ali təhsil müəssisələrindən isə 200-dən çox nümayəndə iştirak edib.

Azərbaycan müəllimlərinin ilk qurultayı 1906-cı ildə keçirilib. Qurultay ənənəvi olaraq 5 ildən bir keçirilir. Müstəqillik dövründə Azərbaycan müəllimlərinin 5 qurultayı keçirilib.

**AZƏRTAC**

# Türkmənbaşı şəhərində Azərbaycanın nüfuzlu nümayəndə heyətinin iştirakı ilə beynəlxalq nəqliyyat konfransı keçirilib

**Noyabrın 28-də Türkmənbaşı şəhərində tranzit və nəqliyyat əməkdaşlığı haqqında "Lapis-Lazuli" Sazişinin iştirakçısı olan ölkələrin (Əfqanıstan, Türkmənistan, Azərbaycan, Gürcüstan və Türkiyə) nəqliyyat nazirlərinin beynəlxalq konfransı keçirilib.**




AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, konfransın işində Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubovun rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib.

Azərbaycan nümayəndə heyətinin tərkibinə nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov, "Azərbaycan Xəzər Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev, Azərbaycanın Türkmənistandakı səfiri Həsən Zeynalov, xarici işlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər daxil idi.

Konfrans "Lapis-Lazuli" beynəlxalq nəqliyyat dəhlizinin yaradılması haqqında Sazişin müddəalarının qısa müddətdə həyata keçirilməsini təmin etmək məqsədilə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun sərəncamına müvafiq olaraq keçirilib.

Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun konfrans iştirakçılarına təbrikini Türkmənistanın Baş nazirinin müavini Məmmədxan Çakıyev oxuyub.

Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov Plenar iclasda çıxış edərək bildirib ki, Azərbaycan "Lapis-Lazuli" layihəsinin reallaşdırılması üçün əlindən gələni edəcək. Baş nazirin birinci müavini deyib ki, nəqliyyat sahəsi Azərbaycan-Türkmənistan tərəfdaşlığının strateji istiqamətlərindən biridir. Bu sahədə tranzit-nəqliyyat və logistika infrastrukturunun yaradılması və inkişaf etdirilməsi üçün geniş imkanlar var.

Yaqub Eyyubov Azərbaycan Prezidentinin bu günlərdə Türkmənistana rəsmi səfər etməsini xatırladaraq deyib ki, həmin səfər müddətində nəqliyyat sahəsində əməkdaşlıq məsələlərinə xüsusi diqqət yetirilib. Səfər çərçivəsində imzalanmış 21 sənəddən 9-u tranzit-nəqliyyat əməkdaşlığına aiddir. Bu il Bakı və Türkmənbaşı şəhərlərində açılmış limanları "Lapis-Lazuli" nəqliyyat marşrutunun əsas yükaşırma məntəqələri adlandıran Y.Eyyubov bildirib ki, Bakı limanının yükaşırma qabiliyyəti birinci mərhələdə ildə 15 milyon tona, növbəti mərhələdə isə ildə 25 milyon tona bərabər olacaq. Tranzit-nəqliyyat əməkdaşlığını ölkələr arasında ticari-iqtisadi əməkdaşlığın mühüm amillərindən biri adlandıran Azərbaycan Baş nazirinin birinci müavini xatırladıb ki, Azərbaycan, Türkiyə və Gürcüstanın birgə səyləri ilə bir il bundan əvvəl istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu Asiyanı Avropa ilə birləşdirən ən qısa marşrutdur.

Plenar iclasda Özbəkistan Respublikası Baş nazirinin birinci müavini Açılbay Ramatov, Türkiyə Respublikası nəqliyyat və infrastruktur naziri Cahit Turxan, Əfqanıstan İslam Respublikasının nəqliyyat naziri Təhmasi Möhd Hamid, Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf nazirinin müavini Akaki Saqiraşvili, MDB İcraiyyə Komitəsi sədrinin birinci müavini Viktor Quminski çıxış ediblər.

MDB nümayəndəsi "Lapis-Lazuli" layihəsinin reallaşdırılmasını dəstəklədiyini bildirərək deyib ki, bu layihə həyata keçirilən qitələrarası layihələrin şərq budağı olacaq. V.Quminski nəqliyyat dəhlizlərinin şaxələndirilməsinin əhəmiyyətindən söhbət açaraq Azərbaycan Prezidenti İlham Əliyevin bu fikrini sitat gətirib ki, nəqliyyat dəhlizlərinin fəaliyyəti yeni tranzit-nəqliyyat imkanları yaradır, ikitərəfli və çoxtərəfli ticari-iqtisadi əlaqələri genişləndirir.

Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə forumda "Tranzit-nəqliyyat dəhlizinin fəallaşmasında dövlətlərarası əməkdaşlığın rolu, tranzit-nəqliyyat dəhlizlərinin inkişafında logistik şirkətlərin əhəmiyyəti" seksiyasında çıxış edib. O vurğulayıb ki, nəqliyyat və tranzit infrastrukturunun inkişafı Azərbaycanın hərtərəfli inkişafı, qarşıdakı illərdə onun sabit və ardıcıl tərəqqisinin təmin edilməsi üzrə dövlət siyasətinin əsas istiqamətlərindəndir. 2016-cı ilin sonunda Azərbaycanda iqtisadiyyatın bütün əsas sektorlarını əhatə edən 12 Strateji Yol Xəritəsi qəbul edilib.

Strateji Yol xəritələrində başqa sektorlarla yanaşı, logistika və ticarət sektorlarına da diqqət yetirilib, Azərbaycanın regional logistika və ticarət mərkəzi kimi aparıcı rolunun artması qeyd edilib.

"Şimal-Cənub", "Bakı-Tbilisi-Qars", "Cənub-Qərb" və "Lapis-Lazuli" beynəlxalq nəqliyyat dəhlizlərinin qovuşduğu məkanda yerləşən Azərbaycan Avropa ilə Asiyanı birləşdirən logistik zəncirin əsas halqasına çevrilmək üçün hər cür şəraitə malikdir.

Bu vəzifənin reallaşdırılması, infrastruktur layihələrinə investisiyalar Azərbaycanın ümumi daxili məhsulunu birbaşa 240 milyon manat, dolayısı ilə daha 140 milyon manat və bütövlükdə 380 milyon manat artırmağa, 5500 yeni iş yeri açılmasına imkan verəcək.

Gözlənildiyinə görə, "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat marşrutlarının sayəsində ölkənin ümumi daxili məhsulu hər il 7 faiz artacaq. Konteyner, quru, maye və qablaşdırılmış yüklərin bütün kateqoriyalarının daşınmasında Azərbaycanın iştirakı təmin olunacaq.

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin baş direktoru Taleh Ziyadov "Multimodal daşımalar və onların dövriyyəsi" seksiyasında çıxış edib. O vurğulayıb ki, ölkəmizin "Qərb-Şərq" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin kəsişdiyi məkanda yerləşməsi və ölkədə mövcud olan siyasi sabitlik sayəsində Bakı limanı əcnəbi sərmayədarlar üçün cəlbedici olub. T.Ziyadov bildirib ki, Bakı limanında yükdaşımaların dinamikası ildən-ilə artır. Cari ilin 10 ayı ərzində konteynerlərin aşırılması göstəricisi 50,6 faiz artaraq 18.728 TEU olub, limanın xidmətlərindən istifadə edən sərnişinlərin sayı isə 48,5 faiz artaraq 39.215-ə bərabər olub.

Bu gün Bakı limanı yükdaşımaların bütün növlərini həyata keçirməyə imkan verir. T.Ziyadovun sözlərinə görə, hazırda limanın tamamilə avtomatlaşdırılmış şəkildə idarə edilməsi üçün son sınaq yoxlamaları aparılır. Bütün bunlar beynəlxalq nəqliyyat marşrutlarında, o cümlədən "Lapis-Lazuli" marşrutunda yükdaşımaları və boşaldılan yüklərin yenidən yüklənməsi işlərini səmərəli və sürətlə həyata keçirməyə şərait yaradır.

Tədbir öz işini plenar iclaslarda, habelə "Tranzit-nəqliyyat dəhlizlərinin fəaliyyətində dövlətlərarası əməkdaşlığın rolu", "Tranzit-nəqliyyat dəhlizlərinin inkişafında logistik şirkətlərin əhəmiyyəti", "İnfrastruktur və nəqliyyat imkanları", "Multimodal daşımalar və onların dövriyyəsi" mövzularına həsr edilmiş seksiyalarda davam etdirib. Konfrans çərçivəsində sərgi təşkil olunub.

Xatırladaq ki, "Lapis-Lazuli" marşrutuna dair Saziş 2017-ci il noyabrın 15-də Əfqanıstan, Türkmənistan, Azərbaycan, Gürcüstan və Türkiyə arasında Əfqanıstana dair VII regional iqtisadi əməkdaşlıq konfransında (RECCA - Regional Economic Cooperation Conference on Afghanistan) imzalanıb.

Bu sənədin reallaşdırılması regionun iqtisadi inteqrasiya səviyyəsini yüksəltməyə, ticarətin həcmini əhəmiyyətli dərəcədə artırmağa xidmət edir. "Lapis-Lazuli" beynəlxalq nəqliyyat dəhlizi həmin marşrut üzrə yükdaşımaların həcmini artırmaq üçün yeni imkanlar yaradır.

Forumun işində Sazişin iştirakçısı olan ölkələrin nüfuzlu nümayəndə heyətləri, dünyanın bir sıra ölkələrindən gəlmiş mütəxəssislər, o cümlədən nəqliyyat şirkətlərinin, sahəvi nazirlik və idarələrin, beynəlxalq təşkilatların və KİV-lərin nümayəndələri iştirak ediblər.

Beynəlxalq konfransın iştirakçıları yekun bəyannamə qəbul ediblər. Sənəddə davamlı inkişafın mühüm elementlərindən biri kimi nəqliyyat və tranzit dəhlizlərinin yaradılması və inkişafı işində beynəlxalq əməkdaşlığın zəruriliyi vurğulanır. Yekun bəyannamədə deyilir: "Sabit regional inkişafın təmin edilməsi üçün Əfqanıstan, Türkmənistan, Azərbaycan, Gürcüstan və Türkiyə arasında tranzit və nəqliyyat əməkdaşlığı haqqında "Lapis-Lazuli" Sazişinin əhəmiyyətini xüsusi vurğulayırıq. Sazişin müddəalarının praktiki surətdə həyata keçirilməsi məqsədilə iştirakçı ölkələrin müvafiq idarələrinin nümayəndələri arasında müntəzəm görüşlər keçirilməsinin zəruriliyini qeyd edirik. Digər ölkələrin sazişə qoşulmağa marağını alqışlayırıq.

Nəqliyyatın bütün növləri arasında əlaqələrin möhkəmlənməsi və tranzit-nəqliyyat dəhlizlərinin inkişafı üçün BMT sisteminə daxil olan təşkilatlar və digər beynəlxalq təşkilatlar, müvafiq beynəlxalq maliyyə təsisatları, çoxtərəfli və ikitərəfli donorlar və özəl sektor tərəfindən ölkələrə maliyyə və texniki yardımın səfərbər edilməsi işində səyləri əlaqələndirməyin və əməkdaşlığın zəruriliyini vurğulayırıq.

**AZƏRTAC**

# Daxili İşlər Nazirliyinin nümayəndə heyəti Serbiyada səfərdə olub

**Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubovun başçılıq etdiyi nümayəndə heyəti Serbiya Respublikası Baş nazirinin müavini-daxili işlər naziri Neboyşa Stefanoviçin dəvəti ilə bu ölkədə ikigünlük səfərdə olub.**



Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, noyabrın 27-də daxili işlər naziri R.Usubov və onu müşayiət edən şəxslər Belqradda ulu öndər Heydər Əliyevin şərəfinə ucaldılmış abidənin önünə əklil qoyaraq, dahi şəxsiyyətin əziz xatirəsini dərin ehtiramla yad ediblər.

Həmin gün Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç daxili işlər naziri, general-polkovnik Ramil Usubovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Serbiya Prezidenti cari ilin mayında respublikamıza ilk rəsmi səfərini, ölkəmizdə ən yüksək səviyyədə aparılan danışıqları və imzalanmış sənədləri məmnunluqla xatırladıb. Dövlət başçısı ölkəsinin Azərbaycan ilə əlaqələrin genişləndirilməsinə hər zaman böyük önəm verdiyini, bütün sahələrdə əməkdaşlığı inkişaf etdirmək əzmində olduqlarını diqqətə çatdırıb. Beynəlxalq arenada hər iki dövlətin bir-birinin müstəqilliyini, ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini, olduqca mürəkkəb regionda yerləşməsinə baxmayaraq, Prezident İlham Əliyevin liderliyi ilə respublikamızın son illər böyük uğurlara imza atdığını deyən Serbiya Prezidenti Azərbaycanın öz milli maraqlarına xidmət edən müstəqil siyasət yürütdüyünü, dünyada nüfuzunun artdığını vurğulayıb, səmimi salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırmağı xahiş edib.

Sonra Serbiya Respublikası Baş nazirinin müavini - daxili işlər naziri Neboyşa Stefanoviç general-polkovnik Ramil Usubovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Dəvəti qəbul etdiyinə görə təşəkkürünü bildirən serbiyalı nazir dövlətlərimizin başçılarının siyasi iradəsinə və dostluq münasibətlərinə uyğun olaraq, son illər ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin dinamik inkişaf etdiyini, qarşılıqlı əlaqələrin milli maraqlara cavab verdiyini vurğulayıb.

Neboyşa Stefanoviç bənzər münaqişələrdən əziyyət çəkən hər iki dövlətin bir sıra problemlərə dair beynəlxalq müstəvidə eyni mövqedə olduğunu, yaxın dost saydıqları Azərbaycanın Daxili İşlər Nazirliyi ilə əməkdaşlıqda maraqlı olduqlarını, bu səfərin də əlaqələrin dərinləşməsinə töhfə verəcəyinə əminliyini bildirib.

Dəvətə və yüksək qonaqpərvərliyə görə təşəkkür edən nazir Ramil Usubov ölkəmizin tarixən Balkan dövlətləri, o cümlədən Serbiya ilə dostluq əlaqələrinin mövcudluğunu məmnunluqla diqqətə çatdırıb. Ulu öndər Heydər Əliyevin ikitərəfli münasibətlərin qurulmasına və inkişafına xüsusi önəm verdiyini, qarşılıqlı səfərlər, aparılan danışıqlar və imzalanmış sənədlər sayəsində əməkdaşlığın yeni inkişaf mərhələsinə qədəm qoyduğunu vurğulayan general-polkovnik Ramil Usubov 2010-cu il mayın 13-də Bakıda imzalanmış "Azərbaycan Respublikasının Hökuməti ilə Serbiya Respublikasının Hökuməti arasında cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş"in bu baxımdan iki ölkənin Daxili İşlər nazirlikləri arasında əlaqələrin qurulmasında əhəmiyyətli rolunu xatırladıb.

Nazir ölkəmizdə cinayətkarlıqla mübarizə sahəsində həyata keçirilən tədbirlər, müstəqilliyin ilk illərində üzləşdiyimiz problemlər, ulu öndər Heydər Əliyevin ali hakimiyyətə qayıdışından sonra həyata keçirilən islahatlar, ictimai-siyasi sabitliyin, əmin-amanlığın bərpası istiqamətində hüquq-mühafizə, o cümlədən daxili işlər orqanlarının gördükləri işlər barədə məlumat verib. Bu siyasətin bu gün də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirildiyi bildirilib.

Mövcud problemlərə toxunan daxili işlər naziri transmilli mütəşəkkil cinayətkarlığın əsas növlərindən olan beynəlxalq terrorçuluq, narkotiklərin qanunsuz dövriyyəsi, insan alveri, qanunsuz miqrasiya və kibercinayətkarlıq ilə mübarizənin diqqət mərkəzində dayandığını, onlara qarşı yalnız birgə səylərlə səmərəli mübarizə aparılmasının vacibliyini vurğulayıb.

Sonda daxili işlər nazirləri "Serbiya Respublikasının Kriminalistika və Polis Araşdırmaları Akademiyası ilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyası arasında elm və təhsil sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalayıblar.

Daha sonra nazirlər mətbuat üçün qısa bəyanatlarla çıxış ediblər.

Həmin gün Serbiya Respublikası Milli Assambleyasının sədri Maya Qoykoviç general-polkovnik R.Usubov və nümayəndə heyətinin üzvləri ilə görüşüb.

Səfərin sonunda daxili işlər naziri R.Usubov və onu müşayiət edən şəxslər Xüsusi Antiterror Qrupunun yerləşdiyi əraziyə gələrək, qurumun fəaliyyəti, əməkdaşların təlim-məşq prosesi və texniki təminatı ilə yaxından tanış olublar.

Qəbul və görüşlərdə Azərbaycan Respublikasının Serbiyadakı səfiri Eldar Həsənov da iştirak edib.

**AZƏRTAC**

# Rusiya-Azərbaycan dövlət sərhədlərinin vəziyyəti müzakirə olundu

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti ilə Rusiya Federasiyasının Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidməti arasında 2018-2019-cu illər üçün Tədbirlər Planına uyğun olaraq fəaliyyət uğurla davam etdirilir.



Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin Sərhəd Nəzarətinin rəisi general-mayor A.Xəlilovun dəvəti ilə cari il noyabrın 27-də Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidməti rəisinin müavini - Sərhəd Nəzarəti Departamentinin rəisi general-polkovnik İqor Şmotkinin rəhbərliyi ilə nümayəndə heyəti Azərbaycana səfərə gəlmişdir.

Noyabrın 28-də Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik E.Quliyev tərəfindən Rusiya nümayəndə heyəti qəbul edilmişdir. Görüşdə ikitərəfli əlaqələrin vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılmış, dövlət sərhədindən buraxılış məntəqələrində şəxslər, nəqliyyat vasitələri və yüklər üzərində etibarlı sərhəd nəzarətinin təşkil edilməsi, transsərhəd cinayətkarlığın təzahürləri olan qaçaqmalçılıq fəaliyyətləri, qanunsuz miqrasiya ilə mübarizə sahəsində əməkdaşlıq və qarşılıqlı əlaqələndirmənin davam etdirilməsi, təcrübə və məlumat mübadiləsinin əhəmiyyəti vurğulanmışdır.

Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında imzalanmış Sazişə uyğun olaraq "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi kimi irimiqyaslı infrastruktur layihənin həyata keçirilməsi üçün mühüm əhəmiyyət kəsb edən Samur çayı üzərindən yeni avtomobil körpüsünün tikintisi aparılan ərazidə sərhəd qurumları tərəfindən etibarlı sərhəd nəzarətinin təmin edilməsi məsələləri üzrə qarşılıqlı əlaqələndirmənin yüksək səviyyədə olması qeyd edilmiş, dövlət sərhədindən buraxılış məntəqələrində şəxslər və nəqliyyat vasitələri üzərində sərhəd nəzarətinin təkmilləşdirilməsinin, vətəndaşların dövlət sərhədindən keçmə prosedurlarının daha da sadələşdirilməsi ilə yanaşı sərhəd təhlükəsizliyinin gücləndirilməsinin vacibliyi vurğulanmışdır.

Səfər çərçivəsində qonaqlar Heydər Əliyev Beynəlxalq Aeroportu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanında sərhəd nəzarətinin təşkili və xüsusiyyətləri ilə tanış olmuş, sərhəd nəzarəti bölmələrinin xidməti-döyüş fəaliyyətinin müasir tələblərə uyğun aparılması məqsədilə tətbiq olunan qabaqcıl sistem və texniki vasitələri nəzərdən keçirmişlər.

Azərbaycan və Rusiya nümayəndələri müsbət təcrübə mübadiləsini aparmış, gələcək əlaqələrin perspektivlərini müzakirə etmiş və sərhəd nəzarəti bölmələri arasında praktiki əməkdaşlıq tədbirlərinin davam etdirilməsinə dair razılıq əldə etmişlər.

**Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzi.**

# QDİƏT-in Parlament Məclisinə sədrlik Azərbaycana keçib

**Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament (QDİƏT) Məclisinə sədrlik Azərbaycana keçib.**

AZƏRTAC xəbər verir ki, bununla bağlı qərar məclisin İrəvanda keçirilmiş 52-ci sessiyasında qəbul edilib. Beləliklə, növbəti - 53-cü sessiya 2019-cu ilin iyununda Bakıda təşkil olunacaq.

QDİƏT-in Parlament Məclisinin 52-ci sessiyasında Milli Məclisin aqrar siyasət komitəsinin sədr müavini Eldar Quliyev, Milli Məclisin deputatı, Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov iştirak ediblər. Tədbirdə təşkilatın regionda iqtisadi əlaqələrin möhkəmlənməsində rolu, həmkarlar ittifaqının cəmiyyətlərə təsiri, bölgənin turizm potensialı və perspektivi mövzularında müzakirələr aparılıb.

Məlum olduğu kimi, sessiyanın dünənki iclasında E.Quliyev "Regional iqtisadi əməkdaşlığın inkişafında parlamentlərin rolu", Ə.Amaşov isə "Azərbaycan Respublikasında kiçik biznesin inkişafında dövlət dəstəyi" mövzusunda çıxış ediblər.

Qeyd edək ki, QDİƏT-in Parlament Məclisinə sədrlik əlifba sırası əsasında, rotasiya qaydasına uyğun olaraq 6 ay müddətində həyata keçirilir. Qaydaya görə, Məclisə sədrliyi ölkənin parlamentinin rəhbəri həyata keçirəcək. Bu baxımdan növbəti 6 ay müddətində QDİƏT-in Parlament Məclisinin sədri Azərbaycan Milli Məclisinin sədri Oqtay Əsədov olacaq.

**AZƏRTAC**

# Ukraynanın nümayəndə heyəti ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib

**Noyabrın 28-də Ukraynanın Lvov vilayətinin qubernatoru Oleq Sınyutkanın başçılıq etdiyi nümayəndə heyəti Fəxri xiyabanda xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini anıb, məzarı önünə əklil qoyub.**

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə tər güllər düzülüb.

Qonaqlar, həmçinin dünya şöhrətli müğənni, SSRİ Xalq artisti Müslüm Maqomayevin məzarını ziyarət ediblər.

**AZƏRTAC**

# "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" UNESCO-nun Təcili Qorunma Siyahısına daxil edilib

**"Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" UNESCO-nun Təcili Qorunma Siyahısına daxil edilib.**

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Mədəniyyət və Xarici İşlər nazirliklərinin birgə bəyanatında bildirilir.

Bəyanatda deyilir: "2018-ci ilin 26 noyabr - 1 dekabr tarixlərində Mavriki Respublikasının paytaxtı Port Luis şəhərində UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin növbəti 13-cü sessiyasında qəbul edilən qərarla "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" UNESCO-nun Təcili Qorunma Siyahısına daxil edilib.

Sözügedən nominasiya sənədi Mədəniyyət Nazirliyi, Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikasının UNESCO yanında daimi nümayəndəliyinin birgə əməkdaşlığı ilə təqdim edilib. Namizədlik sənədinin məhz Naxçıvan adı ilə təqdim edilməsində əsas məqsəd ölkəmizin qədim və tarixi regionu olan Naxçıvanda yaşayan əhalinin ənənəvi mədəniyyətinə və xalq yaradıcılığına dünya miqyasında işıq salmaq və tanıtmaq, eyni zamanda, bu ənənələri UNESCO səviyyəsində qorumaqdır.

Ermənistanın Azərbaycanın digər mədəni irs namizədləri ilə bağlı olduğu kimi "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" nominasiyasına qarşı təxribat xarakterli cəhdlərinin qarşısı alınıb, Azərbaycan Respublikasının aidiyyəti dövlət orqanları tərəfindən sessiyadan əvvəl müvafiq iş aparılıb və ölkəmizin nümayəndə heyəti tərəfindən sessiya zamanı Ermənistan tərəfinə layiqli cavab verilib.

UNESCO ilə əməkdaşlığın inkişafında və mədəni irsimizin qorunması və dünya miqyasında təbliğində müstəsna rolu olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri xanım Mehriban Əliyevanın dəstəyi ilə "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" ilə yanaşı, hazırda kamança hazırlanması və ifaçılıq sənəti, dolma hazırlama və paylaşma ənənəsi, Azərbaycan muğam ifaçılığı, lavaş bişirmə və paylaşma ənənəsi, Lahıc misgərlik sənəti, aşıq sənəti, Novruz bayramı, xalça sənəti, tar ifaçılığı, kəlağayı sənəti UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısında, həmçinin Qarabağın Çövkən ənənəvi atüstü oyunu isə UNESCO-nun təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısında yer alır".

**AZƏRTAC**

# TAXILÇILIĞIN ELMİ ƏSASLARLA İNKİŞAFINA BÖYÜK TÖHFƏLƏR VERMİŞ ALİM

**İnsan ömrü cəmiyyətə, elmə, təhsilə, xeyirxah əməllərə həsr edildikdə mənalı olur, xatırlanır, qürur doğurur. Belə mənalı bir ömür yaşayan, həyatını Azərbaycan elminin inkişafına, müstəqilliyimizin və dövlətçiliyimizin möhkəmlənməsinə sərf edən qüdrətli şəxsiyyətlərdən biri də bu il 90 illik yubileyini qeyd etdiyimiz, dünya elminə böyük töhfələr vermiş, öz sanballı tədqiqatları, dərin zəkası və fitri istedadı ilə müasir biologiya və aqrar elmlərin inkişafında böyük xidmətləri olmuş tanınmış alim, mahir elm təşkilatçısı və bacarıqlı ictimai xadim, millət vəkili, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Əməkdar elm xadimi, biologiya elmləri doktoru, professor Cəlal Əlirza oğlu Əliyevdir.**



Bütün dünyada olduğu kimi, Azərbaycanda da taxılçılıq ölkənin ərzaq təhlükəsizliyinin təminatı baxımından kənd təsərrüfatının əsas strateji sahələrindən biri hesab olunur. Millətini, vətənini canı qədər əziz tutan, sevən Cəlal Əliyev hələ tələbəlik illərindən bunu yaxşı bilirdi və ona görə də bütün taleyini, alim ömrünü şüurlu surətdə bu sahəyə bağlamağı, xalqın gələcək rifahına, yüksəlişinə öz alim töhfəsini vermək qərarına gəlmişdi. Bəlkə də məhz bu səbəbdən akademik Cəlal Əliyevin uğurlu elmi yaradıcılığının ən məhsuldar hissəsi, əsasən, Azərbaycanda taxılçılığın inkişafına yönəlmişdir. Mübaliğəsiz demək olar ki, elmi-praktiki əsaslar üzərində qurulan bitki seleksiyası sahəsində ölkədə qabaqcıl mövqeyi ilə seçilən Cəlal Əliyev məktəbi formalaşmışdır.

Akademik Cəlal Əliyev Azərbaycan elmi tarixində ilk dəfə olaraq ömrünün 60 ildən çox bir dövrünü fotosintez prosesinin əsaslı şəkildə öyrənilməsinə həsr etmiş və bu sahə onun elmi yaradıcılığının fundamental tədqiqat obyektinə çevrilmişdir. O, alim ömrünün əhəmiyyətli bir hissəsini kənd təsərrüfatı bitkilərində, xüsusən də dənli bitkilərdə gedən fizioloji və biokimyəvi proseslərin xüsusiyyətlərinin, fotosintez hadisəsinə xarici mühit amillərinin təsirinin öyrənilməsinə həsr etmişdir. Görkəmli alim, həmçinin, fotosintez prosesinin müxtəlif tədqiqat istiqamətlərinin inteqrasiyası hesabına "yaxşı" fotosintez haqqında təsəvvür yaratmış, kənd təsərrüfatı bitkilərindən yüksək və keyfiyyətli məhsul əldə edilməsi üçün prosesin optimallaşdırılması məsələsini araşdırmışdır.

Kənd təsərrüfatı bitkilərinin fiziologiyası, seleksiyası və genetikası sahələrində Cəlal Əliyev tərəfindən aparılan çoxillik gərgin fundamental tədqiqatlar əsasında seleksiyanın yeni nəzəri, metodiki əsasları işlənib hazırlandı. 1970-ci illərdə dövlətin elm qarşısında qoyduğu ən başlıca vəzifələrdən biri məhz elə məhsuldarlığın artırılması idi. Bu, kənd təsərrüfatının intensiv inkişafını təmin edəcək təcrübi və nəzəri problemlərin yüksək keyfiyyətlə həll olunması və onların istehsalatda geniş miqyasda tətbiqindən bilavasitə asılı idi. Keçmiş İttifaq dövründə yeni bitki sortları ən əlverişli aqrotexniki qaydalar üzrə becərilirdi. Belə şəraitdə müasir sortların verə biləcəyi potensial məhsulun alınması əsasən təmin edilirdi. Əlbəttə, məhsuldarlığın bu yolla artırılması bəşəriyyətin yaxın gələcəkdə qida məhsullarına olan tələbatının təmin olunmasına imkan verirdi. Bunun üçün isə müasir dövrün tələblərinə cavab verən yüksəkixtisaslı kadrların hazırlanması tələb olunurdu. Artıq 70-ci illərdən başlayaraq Cəlal Əliyevin şəxsi təşəbbüsü və bilavasitə köməkliyi ilə müxtəlif ixtisaslar: biologiya, kimya, aqrokimya, fizika, riyaziyyat üzrə ali məktəb məzunlarından ibarət elmi kollektivin hazırlanmasına başlanılmış və bu elmlərin inteqrasiyası sahəsində respublikamızda ilk dəfə olaraq biologiyanın və kənd təsərrüfatının mühüm nəzəri və praktiki məsələlərinin həll edilməsi üçün riyazi metodların və kompüter texnikasının geniş surətdə tətbiq olunması mümkün olmuşdur.

Akademik Cəlal Əliyevin ən böyük xidmətlərindən biri də onun şəxsi təşəbbüsü ilə respublikada fiziki-kimyəvi biologiya, o cümlədən biokimya, biofizika, molekulyar biologiya, hüceyrə və gen biotexnologiyası sahələrində elmi tədqiqatların inkişafına aid ən yeni avadanlıqlarla təchiz olunmuş laboratoriyaların yaradılması idi.

Buğdanın seleksiyasında əsaslı nailiyyətlərin əldə edilməsi üçün nəzəri tədqiqatların aparılmasının vacibliyini qabaqcadan görən akademik Cəlal Əliyev bu istiqamətdə tədqiqatların aparılmasına rəhbərlik etmiş, Azərbaycanda biologiya elminin müasir istiqamətlərinin inkişafının əsasını qoymuşdur. Akademik buğdanın fotosintez fəaliyyətinin sirlərini aydınlaşdırmaqla prosesi arzu edilən istiqamətə yönəltmək üçün genetik seleksiyadan istifadə etmişdir. Məhz Cəlal müəllimin rəhbərliyi ilə aparılan molekulyar tədqiqatlar əsasında uyğun fermentlər vasitəsilə buğda bitkisinin genom kitabxanası yaradılmış, sintez edilmiş plazmidlərin köməyilə genlərin köçürülməsi nəticəsində davamlılıq geni daşıyan bitki regenerantları alınmışdır.

Təsadüfi deyildir ki, Cəlal Əliyevin rəhbərliyi ilə işlənib hazırlanmış kompleks seleksiya proqramında yüksək potensial məhsuldarlığa malik yeni sortların yaradılması başlıca vəzifə kimi müəyyən edilmişdi. Bu vəzifəni xalq seleksiyasının mövcud yolları ilə həll etmək mümkün deyildi. Bunun üçün seleksiya işinin tam elmi əsaslarla aparılması tələb olunurdu. Genetika və molekulyar biologiya sahəsində əldə olunmuş nailiyyətlər, bitkilərin məhsuldarlığını müəyyənləşdirən fotosintez prosesinin mexanizminin molekulyar-genetik səviyyədə aydınlaşdırılması məqsədyönlü seleksiya işinin aparılmasına imkan verirdi. Bu istiqamətdə aparılan elmi işlərin məqsədi fotosintez aparatı strukturunun seleksiya yolu ilə yaxşılaşdırılmasından ibarətdir. Ona görə də bu istiqamətdə davam etdirilən elmi axtarışlar müasir dövrün aktual problemi kimi qarşıda dururdu. Əkinçilik İnstitutunda həmin dövrdə Cəlal Əliyevin rəhbərliyi ilə aparılan tədqiqat işləri də məhz bu istiqamətə yönəldilmişdi. İnstitutun kollektivi bilavasitə onun rəhbərliyi ilə, dənli taxıl bitkilərinin bioloji xüsusiyyətlərini genetik və molekulyar baxımdan kompleks şəkildə, o cümlədən məhsulun əmələ gəlməsində iştirak edən fotosintez prosesinin irsi əsasının dərindən öyrənilməsinə səfərbər edildi. Problemin tədqiqinə seleksiyaçılarla yanaşı, fitopatoloqlar, entomoloqlar, fizioloqlar, biofiziklər, biokimyaçılar və digər müvafiq ixtisaslar üzrə mütəxəssislər cəlb olundu.

Onun tədqiqatları nəticəsində Azərbaycanda ilk dəfə olaraq, biologiyanın bir sıra yeni sahələrinin–molekulyar biologiyanın, molekulyar genetikanın, gen və hüceyrə biotexnologiyasının, kənd təsərrüfatı radiologiyasının, riyazi biologiyanın və bioinformatikanın əsasları qoyuldu. Hələ 80-ci illərdə Əkinçilik Elmi-Tədqiqat İnstitutunda Cəlal Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə Cənubi Qafqazda yeganə olan ixtisaslaşdırılmış fitotron-istixana kompleksi tikildi. Bu kompleksin köməyi ilə respublikamızın müxtəlif zonaları üzrə müasir əkinçiliyin tələblərinə cavab verən, yüksək məhsuldarlığa və dən keyfiyyətinə malik yumşaq və bərk buğdanın yeni sortlarının yaradılma müddətinin iki dəfəyədək azaldılmasına nail olundu.

Alınan nəticələr ideal tipli sort yaratmaq haqqında məlumat verməklə bərabər, ondan məqsədyönlü seleksiyada da geniş istifadə olunurdu. Keçən əsrin 80-ci illərində aparılan çoxillik elmi axtarışlar nəticəsində Cəlal Əliyev tərəfindən "İdeal buğda" sortunun morfofizioloji modeli işlənib hazırlanmışdır. Bu model özündə fotosintetik fəaliyyətin göstəricilərinin və əlamətlərinin morfofizioloji və aqronomik xüsusiyyətlərinin, buğda genotiplərinin real və potensial imkanlarının xarici mühitin amilləri ilə birlikdə öyrənilməsini ehtiva etmiş, bu əsasda yüksək məhsuldarlığı təyin edən prinsiplər müəyyən edilmişdir. İdeal tipli modeli xarakterizə edən əlamət və xüsusiyyətlərin seleksiyada müvəffəqiyyətlə istifadə olunması, qısa müddətdə yüksək məhsuldar yeni sortların yaradılması üçün düzgün və məqsədyönlü istiqamət verirdi. Beləliklə də akademik Cəlal Əliyevin rəhbərliyi ilə aparılan uzunmüddətli tədqiqat işləri ideal buğda bitkisinin necə olacağı haqqında tam təsəvvür yaradırdı. Yüksək məhsuldar, yaxşı sort haqqında yaranan təsəvvürlər məqsədyönlü seleksiyanın elmi əsaslarla aparılmasında keyfiyyətcə çox mühüm addım idi. Əldə edilən elmi nəticələr yüksək əkinçilik mədəniyyətinin tələblərinə tam cavab verən intensiv tipli yeni sortların yaradılmasına imkan vermişdir.

Bu böyük alimin seleksiyaçı intuisiyası, dərin nəzəri bilikləri, innovativ ideyaları, gərgin və məqsədyönlü əməyi yeni intensiv buğda sortlarının yaradılmasında öz səmərəsini verməyə bilməzdi. Bütün bunların nəticəsində artıq 1980-ci illərdə bir çox qiymətli buğda sortları yaradıldı, respublikamızın müxtəlif regionlarında yerləşən bölgə təcrübə stansiyalarında ekoloji sınaqlardan keçirildi və onların stabil, yüksək məhsuldar, keyfiyyətli formaları seçilərək Seleksiya Nailiyyətlərinin Sınağı və Mühafizəsi üzrə Dövlət Komissiyasına (hazırkı Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidməti) təqdim olundu. Beləliklə, akademik Cəlal Əliyev nəinki ciddi şəkildə aparılan fundamental tədqiqatlarla biologiya və aqrar elmləri zənginləşdirən parlaq nəzəriyyəçi, eyni zamanda, öz nəzəri işləmələrinin nəticələrini həyata keçirməyi bacaran istedadlı praktik idi. Bu isə istehsalat şəraitində özünü təsdiqləyən onlarca yumşaq və bərk buğda sortlarının yaradılmasında öz əksini tapdı.

Aparılan sort sınaqlarının nəticəsi əsasında rayonlaşdırılmış "Mirbəşir 50", "Qaraqılçıq 2", "Vüqar", "Şiraslan 23", "Tərtər", "Bərəkətli 95", "Əlincə 84" bərk, "Mirbəşir 128", "Əkinçi 84", "Qiymətli 2/17" yumşaq buğda sortları tezliklə respublikada geniş əkin sahəsi tutmağa başladı. Hələ 1988-ci ildə bərk buğda proqramının məntiqi nəticəsi kimi, akademik Cəlal Əliyevin yaratmış olduğu məşhur "Qaraqılçıq 2" bərk buğda sortu Azərbaycanda rayonlaşmaq üçün təsdiq olunmuş və tezliklə keçmiş Sovetlər Birliyinin Dövlət Sortsınağı Komissiyası yüksək məhsuldarlığına görə bu sortun Özbəkistan və Türkmənistan respublikalarında da rayonlaşmasına qərar verməmişdi. Məhz o illərdə respublikada taxılın orta məhsuldarlığının iki dəfə artaraq hər hektardan 25-26 sentnerə çatmasında bu sortların əkin sahələrinin tez bir zamanda genişlənməsinin böyük rolu olmuşdur. Bunun üçün Əkinçilik Elmi-Tədqiqat İnstitutunun respublikanın hər bir bölgəsini əhatə edən təcrübə təsərrüfatlarında yaradılmış yüksək məhsuldar taxıl sortlarının toxumçuluq sistemi sürətlə inkişaf etdirildi. Hər bir bölgə üçün işlənib hazırlanmış, elmi cəhətdən əsaslandırılmış becərmə texnologiyasının tətbiqi göstərdi ki, intensiv tipli bu sortlardan optimal becərmə şəraitində hektardan 7-8 ton məhsul almaq mümkündür. Bir sözlə, fermerlərin dili ilə desək, "Cəlal Əliyevin sortları" respublikanın müxtəlif aqro-iqlim bölgələrinin yerli şəraitinə uyğun olmaqla və dəyişən ekoloji amillərin təsirinə qarşı öz adaptiv xüsusiyyətlərini qorumaq, habelə yüksək məhsuldarlıq və keyfiyyət göstəriciləri ilə seçilirlər. Bu gün fermerlər tərəfindən, həmçinin iri taxılçılıq təsərrüfatlarında geniş şəkildə becərilən "Qobustan", "Əzəmətli 95", "Qırmızı gül 1", "Tale 38", "Qızıl buğda", "Ləyaqətli 80" yumşaq buğda sortlarını bu mənada xüsusi olaraq qeyd etmək lazımdır.

Təsadüfi deyildir ki, akademik Cəlal Əliyevin əldə etdiyi bu elmi nailiyyətləri, eləcə də Əkinçilik Elmi-Tədqiqat İnstitutunda morfo-fizioloji əsasda yaradılan buğda sortları və onların respublikada geniş əkin sahəsinə malik olmaları 2011 və 2013-cü illərdə Bakıda keçirilən və "Davamlı inkişaf üçün fotosintez tədqiqatları"na həsr edilmiş beynəlxalq konfransda iştirak edən 40-dan artıq ölkənin elm adamları tərəfindən yüksək qiymətləndirilmişdir.

İlkin seleksiya nailiyyətlərinin təsərrüfatlara sürətlə tətbiqini təşkil etmək üçün 1993-cü ildən Əkinçilik Elmi-Tədqiqat İnstitutunda akademik Cəlal Əliyevin bilavasitə təşəbbüsü və kollektivin iştirakı ilə elmlə istehsalatın sıx əlaqəsinin yaradılması istiqamətində addımlar atılmış və bu öz bəhrəsini vermişdir. Əkinçilik İnstitutu ilə respublikanın toxumçuluq təsərrüfatları arasında əlaqələrin bir mərkəzdən idarə edilməsi nəticəsində taxıl istehsalı sürətlə artmış, yaradılmış yeni buğda sortlarının toxumçuluğunun yüksək səviyyədə təşkili və təsərrüfatlara tətbiqi mümkün olmuşdur. Məhz bunun nəticəsidir ki, əgər əvvəllər Azərbaycana digər ölkələrdən hər il min tonlarla taxıl toxumu idxal edilirdisə, 1996-cı ilin payızından etibarən buna ehtiyac duyulmamışdır. Bu da öz növbəsində külli miqdarda valyutanın ölkədə qalmasına imkan yaratmışdır.

Hazırda əkin sahələrinin təkmilləşdirilməsinə, əkinçilik mədəniyyətinin yüksəldilməsinə, yeni məhsuldar bitki sortlarının yaradılmasına və tətbiqinə ehtiyac duyulur. Bu məsələnin uğurlu həllində böyük təcrübə və nüfuz sahibi olan akademik Cəlal Əliyevin rəhbərlik etmiş olduğu elmi kollektivlərin, yaratdığı və himayə etdiyi elmi məktəbin rolu, eləcə də onların üzərinə düşən məsuliyyət bu gün də əhəmiyyətli dərəcədə yüksəkdir.

Akademik Cəlal Əliyevin xalqımız qarşısında böyük xidmətlərindən biri də onun fəal ictimai mövqeyi ilə seçilməsi idi. Cəlal müəllim heç zaman ədalətsizliklə barışmamış və həmişə prinsipiallığı ilə seçilmişdir. O, Azərbaycan Respublikası Milli Məclisinin üzvü olduğu dövrlərdə daimi komissiyaların işində elm, təhsil, kənd təsərrüfatı, tibb, ekologiya və s. sahələrlə əlaqədar qanun layihələrinin hazırlanmasında fəal iştirak etmiş, qaçqın və məcburi köçkünlərlə tez-tez görüşərək onlara maddi və mənəvi dayaq olmuşdur.

Akademik Cəlal Əliyevin alim əməyi və ictimai fəaliyyəti xalqımız və dövlətimiz tərəfindən həmişə yüksək qiymətləndirilmişdir. O, Əməkdar elm xadimi (1982) adına layiq görülmüş, elmin inkişafında böyük xidmətlərinə görə 2 dəfə "Qırmızı Əmək Bayrağı" (1978, 1986), Müstəqil Azərbaycan Respublikasının ən ali mükafatları - "İstiqlal" (1998), "Şərəf" (2013) və Gürcüstan Respublikasının "Şərəf" (2003) ordenləri ilə təltif olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin Fəxri Diplomu (2008) ilə təltif olunmuş akademik Cəlal Əliyev dörd çağırış (1995; 2000; 2005; 2010) Azərbaycan Respublikası Milli Məclisinə üzv seçilmişdir.

Kənd təsərrüfatı bitkilərinin, xüsusən də buğdanın seleksiyası sahəsində uzun illər apardığı nəzəri və praktiki tədqiqatlar nəticəsində əldə etmiş olduğu nailiyyətlər görkəmli alimin elmi yaradıcılığının ancaq bir hissəsini təşkil edir. Bu böyük alimin bitki fiziologiyası, fotosintez nəzəriyyəsi, biokimya, biofizika, molekulyar biologiya, gen mühəndisliyi, hüceyrə seleksiyası və biologiya elminin digər sahələrində əldə etdiyi nailiyyətlər gələcək nəsillər üçün tükənməz bir irs olaraq qalacaqdır. Bu irsi yaşatmaq, qoruyub gələcək nəsillərə çatdırmaq bu məktəbin hər bir üzvünün, müstəqil Azərbaycanımızı qüdrətli bir dövlət kimi görmək istəyən hər bir azərbaycanlının müqəddəs borcu olmalıdır.

İllər ötəcək, onilliklər keçəcək, ancaq görkəmli alimin və böyük müəllimin Azərbaycan elmində qoyduğu şərəfli iz heç zaman silinməyəcək. Onun yaratdığı məktəb, onun qoyduğu irs heç vaxt öz qüdrətini itirməyəcək, bitib-tükənməyəcək və hər zaman müstəqil, firavan, qüdrətli Azərbaycan dövlətinin və xalqının xidmətində şərəflə duracaqdır.

**Cavanşir TƏLAİ,**
**Əkinçilik Elmi-Tədqiqat İnstitutunun direktoru, b.ü.f.d., dosent.**

---

Bu günlərdə Tofiq Seyidzadənin işıq üzü görən kitabı professor Hamlet Aslanovun həyat fəaliyyətinə həsr olunub. Kitabda xatırlanır ki, uşaqlığını zirvələri qarlı, uca dağlı, zəngin, mavi səmalı, büllur bulaqlı, güllü-çiçəkli, yaylaqlı qədim Oğuz eli — Qərbi Azərbaycanın Ağbaba mahalında keçirmiş Aslanov Hamlet Qurbanəli oğlu 1950-ci ildə ailəsi ilə birlikdə Azərbaycana köçmüşdür. O, 1955-ci ildə Bakı Hidromeliorasiya Texnikumuna daxil olmuş, 1959-cu ildə texnikumu fərqlənmə diplomu ilə bitirərək, Azərbaycan Politexnik İnstitutunun hidromeliorasiya fakültəsinin tələbəsi olmuşdur. O, institutun II kursundan təhsildəki müvəffəqiyyətinə və ictimai fəaliyyətinə görə Lenin təqaüdünə layiq görülmüşdür. 60-cı illərdə Azərbaycan Politexnik İnstitutunun tələbə təşkilatlarının rəhbərlərindən olan H.Aslanov 1963-cü ildə Respublika Həmkarlar Təşkilatının XI Qurultayının nümayəndəsi olmuşdur. Həmin ildə o, Azərbaycan tələbə gənclərinin yeganə nümayəndəsi kimi Moskvada keçirilən SSRİ Həmkarlar İttifaqının XIII qurultayının nümayəndəsi seçilmişdir.

1964-cü ildə Hamlet Aslanov AzPİ-ni fərqlənmə diplomu ilə bitirib. Hidromeliorasiya fakültəsində müəllim kimi fəaliyyətini davam etdirib. Müəllif xatırladır ki, H.Aslanov 1970-ci ildə dissertasiya müdafiə edərək texnika elmləri namizədi alimlik dərəcəsinə qalxıb və həmin institutda pedaqoji fəaliyyətini davam etdirib. Elmin yüksək zirvəsinə yüksəlmək istəyən Hamlet Aslanov bütün tədqiqat işlərini toplayaraq dissertasiya işini müdafiə edib, aqrar elmlər doktoru dərəcəsini alıb. O, nəinki Azərbaycanda, həm də xaricdə tanınan alimdir. 2002-ci ilin noyabr ayında o, Hidrologiya Akademiyasının Azərbaycan Respublikası üzrə təmsilçisi seçilib. 2004-cü ildə isə həmin akademiyanın "Peşəkar Hidrolog" tituluna layiq görülüb və o, Beynəlxalq Energetika akademiyasının üzvü seçilib. Daha sonra elmi fəaliyyətini davam etdirən Hamlet Aslanov — milli-mənəvi dəyərlərimizin qorunmasında, istedadlı gənc alimlərin hazırlanmasında səmərəli fəaliyyətinə, cəmiyyətdəki ziyalı mövqeyinə, Azərbaycanın su və torpaq sərvətlərinin qorunmasındakı xidmətlərinə görə, 2016-cı ildə "Avropa Nəşr Mətbuat Evi" komissiyasının qərarı ilə "Qızıl medal"a və "Fəxri fərman"a layiq görülüb.

Professor Hamlet Aslanovun tədqiqatları göstərir ki, Azərbaycan müstəqilliyini qazandıqdan sonra, ölkədə həyata keçirilən iqtisadiyyat struktur dəyşikliyi, sahibkarlığın inkişafı və özəlləşmə bütün istiqamətlərdə ətraf mühitin mühafizəsi maraqlarının təmin olunması kontekstində aparılması zərurətini doğurur. Müəllif kitabda haqlı olaraq göstərir ki, aparılan tədqiqatlar və onun məktəbinin çoxsaylı davamçıları, yetişdirdiyi elmlər doktorları, magistrlər və mühəndislərin fəaliyyətində Hamlet Aslanovun xüsusi yeri var.

Alimin apardığı tədqiqatlardan aldığı nəticələr onun ölkəmizdə və xarici ölkələrin nüfuzlu jurnallarında nəşr olunmuş 250-yə yaxın məqalələrində və son illərdə bir-birinin ardınca nəşr olunmuş "Qapalı suvarma sistemləri", "Meliorativ torpaqşünaslıq", "Azərbaycanın dağlıq ərazilərinin torpaqlarının meliorasiyası" (rus dilində), "Torpaqların meliorasiyası", "Azərbaycanın neftlə çirklənmiş torpaqları" (S.Səfərli ilə müştərək), "Kürün aşağı axarının ekocoğrafi problemləri", "Böyük Qafqazın su ehtiyatlarından istifadənin sosial-iqtisadi və ekoloji durumu" (V.Səlimova ilə müştərək) və böyük həcimli monoqrafiya və ali məktəblər üçün yazdığı dərsliklər oxuculara təqdim olunub. Professor Hamlet Aslanovun ali məktəbdə 40 illik pedaqoji fəaliyyəti dövründə yetişdirdiyi yüzlərlə mütəxəssis hazırda respublikamızda, yaxın və uzaq ölkələrdə elmi və təsərrüfatın müxtəlif sahələrində çalışırlar.




Həmçinin, professor Hamlet Aslanov Respublika Prezidenti yanında Ali Attestasiya Komissiyasının Torpaqşünaslıq və Aqrokimya, H.Əliyev adına Coğrafiya institutlarında fəaliyyət göstərən doktorluq dissertasiyaları üzrə İxtisaslaşdırılmış Müdafiə Şurasının, Kənd Təsərrüfatı Nazirliyinin Ekspert Şurasının üzvüdür.

**Əli ƏLİYEV,**
**BDU-nun professoru.**

---

# Bol suvarma suyu bol məhsulun əsasını qoyur

*"Ağ qızıl"ın illər öncə itirilən şöhrətinin geri qaytarılması, aqrar sahədə pambıqçılığın inkişafına yenidən geniş meydan verilməsi bölgələrimizdə yaşayan əhali tərəfindən ruh yüksəkliyi ilə qarşılanmışdır. Dövlətin bu sahəyə qayğı və diqqəti insanlarda inam hissi yaratmış, çörək, ruzi mənbəyi kimi pambıqçılığa maraq birə-beş artmışdır. Ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə pambıqçılığın inkişafına həsr olunmuş geniş müşavirələrdə qarşıya qoyulan vəzifələr bu sahəyə qayğı və diqqətin bariz nümunəsidir. Müşavirələrdə pambıqçılıqla bağlı bütün sahələrin, o cümlədən respublikada aparılan meliorasiya işlərinin vəziyyəti təhlil olunmuş, genişhəcmli meliorativ tədbirlər yüksək qiymətləndirilmişdir. Bir daha qeyd olunmuşdur ki, pambıqçılığın inkişafında meliorativ tədbirlər, xüsusilə bol suvarma suyu ilə təminat başlıca şərtlərdəndir. Son illərdə həyata keçirilən meliorativ tədbirlərin nəticələri sevindiricidir. Keçən il istifadəyə verilən "H" kanalı Moranlı, Əliləmbəyli, Sarxanbəyli və digər kəndlərin uzun illər boyu su həsrətinə son qoymuşdur. Lap bu yaxınlarda ölkə başçısının xeyir-duası ilə işə düşən Arazın yeni qol kanalı min hektarlarla əkin dövriyyəsinə daxil edilən bərəkətli torpaqları suvarma suyu ilə təmin edəcəkdir. Əməkdaşımız Sabirabad rayonunda olmuş, rayon melioratorlarından yeni mövsümdə suvarma sahəsində həyata keçirilən tədbirlər barədə danışmağı xahiş etmişdir.*

**Sabirabad Suvarma Sistemləri İdarəsinin rəisi Şafiq Heydərov:**

- Cənab İlham Əliyevin aqrar sahənin inkişafına dair qarşıya qoyduğu tələbləri özümüzə fəaliyyət proqramı kimi qəbul edirik. Hər şeydən əvvəl onu deyim ki, yola saldığımız ildə rayonumuzun "ağ qızıl" ustaları suvarma suyu sarıdan korluq çəkmədilər. Bu il rayon fermerləri 16822 hektarda bol məhsul becərmişlər. Optimal müddətdə tarlalar suvarma suyu ilə təmin olundu. Əkin aparılacaq sahələr vaxtında arata qoyuldu. Sabirabad rayonu iri kənd təsərrüfatı rayonudur. Təsərrüfatlarda pambıqla yanaşı taxıl, yonca, bostan-tərəvəz və başqa bitkilər becərilir. Həyətyanı sahələri, habelə örüş-otlaq sahələrini, çoxillik bitkiləri suvarma suyu ilə təmin edirik. Ümumiyyətlə, Sabirabad Suvarma Sistemləri İdarəsinin xidmət etdiyi ərazi 30.500 hektar həcmindədir. Kollektivimiz ərazini su ilə normal vəziyyətdə təmin etmək üçün bütün imkanlardan maksimum istifadə edir. Öhdəmizdə olan 1150 kilometrdən artıq suvarma kanalına, 1657 ədəd hidrotexniki qurğuya, 16 nasos stansiyasına, digər avadanlıqlara texniki xidmət göstəririk. 609 kilometr uzunluğunda suvarma kanalını lildən təmizləmiş, təmirə ehtiyacı olan nasos stansiyaları əsaslı təmir edilmişdir. Təşkilati-texniki tədbirlər daima davam etdirilir. Yeri gəlmişkən deyim ki, hazırda ölkənin ərzaq təhlükəsizliyində mühüm rol oynayan taxılın becərilməsi fermerlərin gündəlik qayğısıdır. Bu mövsümdə 23.339 hektar taxıl sahəsinə suvarma suyu verməliyik.

Əkinlərimiz hər il olduğu kimi bu il də bol suvarma suyu ilə təmin olunacaq.

**Alim Mürşüdov, Sabirabad Meliorasiya İdarəsinin rəisi:**

- Ölkədə aqrar sahənin inkişafına göstərilən qayğı və diqqət biz melioratorların məsuliyyətini birə-beş artırır. Sabirabad rayonunun kənd ərazi nümayəndəliklərində keçirilən hesabat yığıncaqlarında, icra başçısının kənd əhalisi ilə keçirdiyi görüşlərdə fermerlərlə meliorasiya tədbirlərindən, bu tədbirlərin hansı keyfiyyətlə aparılması barədə fikir mübadiləsi olur, onların təklifləri, məsləhətləri nəzərə alınır. Məsələn, ən maraqlı və vacib məsələlərdən biri pambıqçılıqda əkin sahələrinin dövriyyəsinin genişləndirilməsidir. Bu təklifi həyata keçirmək üçün cari ildə pambıq əkininə hazırlıqla əlaqədar ərazidə meliorasiya işləri görmüşük. Bu işlər yüksək məhsuldarlığa imkan yaradacaqdır.

Sabirabad Meliorasiya İdarəsi rayonumuzun 67,2 min hektar meliorasiya olunmuş ərazilərinə xidmət edir. İdarənin əsas vəzifəsi meliorativ tədbirləri mütəşəkkil həyata keçirmək, qrunt sularının ərazidən ziyansız uzaqlaşdırılmasını təmin etməkdir. Torpağın meliorativ vəziyyətini qoruyub saxlamağa çalışırıq. Bunun üçün idarənin balansında 3045 kilometr uzunluğunda kollektor-dren şəbəkəsi, 3244 ədəd müxtəlif hidrotexniki qurğular vardır. Kollektivimiz bununla yanaşı, 5 ədəd stasionar nasos stansiyasına xidmət göstərir. Bu ilin 10 ayı ərzində 39 ədəd qurğuda cari və əsaslı təmir işləri görmüş, 332 kilometrlik drenlərdə lildəntəmizləmə işləri aparmışıq. Ərazidə meliorativ vəziyyət normaldır və biz bu vəziyyəti daima qoruyub saxlayacağıq.

**Mirəlif Əzizov, Sabirabad Mexaniki Suvarma İdarəsinin rəisi:**

- Mexaniki üsulla suvarma çətin prosesdir və suvarmanın normal aparılması balansda olan nasos stansiyalarının, digər avadanlıqların daima saz halda olmasından asılıdır. Razılıq hissi ilə deməliyəm ki, kollektivimiz bu işin öhdəsindən lazımınca gəlir. Rayonun 45 kəndində 36.712 hektar əkin sahəsini suvarma suyu ilə təmin edirik. Cari ildə 5652 hektar pambıq, 12.709 hektar taxıl sahəsini optimal müddətdə suvara bilmişik. Yonca, həyətyanı təsərrüfatlar, qarğıdalı, bostan-tərəvəz sahələri su sarıdan korluq çəkməyib.

Kollektivimizin üzvləri qarşıya qoyulan vəzifəni layiqincə yerinə yetirmək üçün cari və əsaslı təmir işlərini keyfiyyətlə aparırlar. Balansda 2380 hidrotexniki qurğu var. Onlardan 60-ı nasos stansiyasıdır. Cari ildə 66 ədəd nasos aqreqatı, 60 ədəd hidrotexniki qurğuda cari təmir işləri aparmış, 447 kilometr uzunluğunda kanalı lildən təmizləmişik.

Hazırda taxıl əkinlərini, örüş yerlərini, yonca sahələrini, digər əkinləri suvarma suyu ilə təmin edirik. Ölkədə aqrar sahənin inkişafı istiqamətində qarşıya qoyulan vəzifələr biz melioratorlar tərəfindən layiqincə yerinə yetiriləcəkdir.

**Hazırladı:**
**Tofiq HÜSEYN,**
**"Respublika".**

# Azərbaycan səhiyyəsi və Strateji Yol Xəritələri

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"nin icrası ilə bağlı 2017-ci il üçün nəzərdə tutulan tədbirlər uğurla həyata keçirildi. Strateji Yol Xəritələrinin uğurlu icrası makroiqtisadi sabitlik, qeyri-neft sektorunun davamlı inkişafı və ixracı potensialının artımı, ticarət və fiskal balansın yaxşılaşması, əlverişli biznes mühiti və sərmayə cəlbi, infrastrukturun davamlı təkmilləşdirilməsi və əhalinin sosial rifahı, habelə ölkənin beynəlxalq mövqelərinin güclənməsinə xidmət edir.**

**2017-ci ilin dərin və sistemli islahatlarında, 2018-ci ilin isə yüksək templi iqtisadi inkişaf ili olmasında Strateji Yol Xəritələrinin xüsusi önəmi vardır. Azərbaycanın sosial-iqtisadi inkişafının aktual məsələlərini hər zaman diqqət mərkəzində saxlayan "Respublika" qəzeti mütəmadi olaraq dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən Strateji Yol Xəritələrinin icrası ilə bağlı silsilə yazılar dərc edilməsi barədə təşəbbüs göstərmişdir. Bu istiqamətdə Azərbaycan səhiyyəsində görülən işlər haqqında məqaləni oxucularımızın diqqətinə təqdim edirik.**

Müstəqil Azərbaycanda əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün də uğurla həyata keçirilən iqtisadi siyasət ölkəmizin hər sahədə dinamik inkişafı üçün əsaslı zəmin yaradıb. Hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin düşünülmüş siyasəti və bacarıqlı rəhbərliyi ölkənin bugünkü sosial-iqtisadi yüksəlişini təmin edir, bununla yanaşı, gələcəkdə də bu proseslərin davamlı olmasına yol açır. Perspektiv tərəqqiyə yönəlmiş, ölkədə həyata keçirilən iqtisadi siyasətin və islahatların davamlılığına xidmət edən addımlardan biri də Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq olunmuş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" və həmin istiqamətlərə müvafiq olaraq qəbul edilmiş 12 strateji yol xəritəsidir.

Son illərdə Azərbaycanda bütün sahələr kimi, ölkə səhiyyəsi də öz davamlı inkişafı ilə səciyyələnir. Həm dövlət başçısı, həm də Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva əhalinin sağlamlığına böyük diqqət ayırır, hərtərəfli qayğı göstərirlər. Bu diqqət və qayğının sayəsində tibb müəssisələrinin siması dəyişir, maddi-texniki bazası gücləndirilir, təminatı yaxşılaşdırılır. Həm bunun, həm də tibbi kadrların ixtisas səviyyəsinin yüksəldilməsi sahəsində görülən işlərin nəticəsidir ki, bu gün ölkəmizdə çox mürəkkəb əməliyyatlar həyata keçirilir, əvvəllər olmayan müasir müalicə üsulları tətbiq edilir, əhalinin sağlamlığını xarakterizə edən göstəricilərdə müsbət dinamika müşahidə olunur.

Səhiyyə sahəsində əldə edilən nailiyyətlərdə qəbul olunmuş bir sıra sənədlərin - qanunvericilik aktlarının, dövlət proqramlarının və s. müstəsna əhəmiyyəti vardır. Bu sənədlər bir çox hallarda səhiyyənin prioritetlərini müəyyənləşdirir, maliyyə resurslarını daha vacib sahələrə yönəldir, ağır xəstəliklərdən əziyyət çəkən insanların vəziyyətini yüngülləşdirməyə və sosial təminatına xidmət edir. Yaxın gələcək üçün Azərbaycanın inkişaf istiqamətlərini müəyyən edən Strateji Yol Xəritələri də bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Strateji Yol Xəritələrinin heç biri konkret olaraq əhalinin sağlamlığı məsələlərinə həsr edilməsə də, onların üçündə səhiyyəyə dair bəndlər var və bununla əlaqədar həmin sənədlərdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi qarşısında müəyyən vəzifələr qoyulur. Bunlar "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi", "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" və "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"dir.

Bunlardan birinci sənəddə - "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"ndə qeyd olunur ki, informasiya-kommunikasiya texnologiyaları (İKT) yüksək göstəricilərə malik inkişaf etmiş iqtisadiyyatın mühüm tərkib hissəsidir. Telekommunikasiya sənayesini, genişçeşidli istehsal və xidmət sektorlarını özündə ehtiva edən İKT kommunikasiya və məlumat mübadiləsinə şərait yaratmaqla, cəmiyyətin, dövlətin və iqtisadiyyatın inkişafında dəstəkləyici rol oynayır. Sənəddə xüsusi vurğulanır ki, bu Strateji Yol Xəritəsinin əsas məqsədi ölkəmizdə dövlət sektorunun səmərəli fəaliyyət göstərməsi, əhalinin sosial-iqtisadi həyat səviyyəsinin yüksəldilməsi, səhiyyənin, təhsilin, maliyyənin, ümumiyyətlə, iqtisadiyyatın rəqəmsallaşdırılması üçün İKT infrastrukturunun inkişafı və təkmilləşdirilməsi, ölkənin İKT sənayesinin potensialının artırılmasıdır. O cümlədən səhiyyənin də gələcəyi müasir texnologiyalarla bağlıdır. Qeyd olunur ki, iqtisadi təsirlə yanaşı, mühüm sosial təsirə də malik olan İKT-nin tətbiqi yoxsulluq, səhiyyə, təhsil və ekologiya sahəsindəki bir sıra problemləri həll etməyə kömək edə bilər: "Müxtəlif sektorlarda İKT-nin nailiyyətlərindən innovativ həllər kimi istifadə edilməsi xüsusi sosial əhəmiyyətə malikdir. Məsələn, səhiyyə sistemində fərqli sahələrdə İKT-nin nailiyyətlərindən istifadə edilir. Belə ki, elektron səhiyyə sistemi tibbi xidmətlərin göstərilməsi və idarəedilməsi ilə bağlı yeni və daha səmərəli yanaşmalar təklif edir ki, bu da, öz növbəsində, həm xidmətlərdən istifadə edən pasiyentlərin sayının artırılmasına, həm də xidmətlərin keyfiyyətinin yüksəldilməsinə imkan verir".

Bütün bunları nəzərə alaraq, "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"nin "Tədbirlər planı" hissəsinə səhiyyə ilə bağlı "İnteqrasiya edilmiş fasiləsiz elektron səhiyyə infrastrukturunun yaradılması" adlanan 3.2-ci bənd daxil edilib. Bu bənd özündə "Elektron səhiyyə proqramının yaradılmasının nəzərdən keçirilməsi", "Mərkəzi elektron tibbi uçot sisteminin yaradılması və mövcud olan müxtəlifplatformalı tibbi informasiya sistemlərinin milli səhiyyə şəbəkəsinə inteqrasiya olunması", "Ümumi standartlaşdırma sisteminin yaradılması" və "Rəqəmsal reseptin verilməsi" kimi yarımbəndləri ehtiva edir.

Bu yarımbəndlərdən ikisinin - "Ümumi standartlaşdırma sisteminin yaradılması" (2017-2020) və "Rəqəmsal reseptin verilməsi" (2017-2025) yarımbəndlərinin icrasına artıq 2017-ci ildə başlanılıb. Əsas icraçı olaraq Nazirlər Kabinetinin, digər icraçılar kimi Səhiyyə Nazirliyi və Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin təyin edildiyi bu yarımbəndlərdə nəzərdə tutulmuş tədbirlərin icrası məqsədilə Səhiyyə Nazirliyinin 30 mart 2017-ci il tarixli 23 nömrəli əmri ilə xüsusi İşçi qrup yaradılıb.

"Ümumi standartlaşdırma sisteminin yaradılması" yarımbəndi üzrə bu sistemin formalaşdırılması məqsədilə beynəlxalq təcrübənin, milli və beynəlxalq standartların, təsnifatların və nomenklaturların öyrənilməsi, elektron səhiyyə sahəsində standartların müəyyənləşdirilməsi və onların istifadəçilərinə dəstək üçün metodik təlimatların hazırlanması nəzərdə tutulan tədbirlər sırasındadır. Azərbaycanın tibbi terminologiyasının hazırlanması və təkmilləşdirilməsi də qarşıda duran vəzifələrdəndir. Azərbaycan Tibb Universitetinin, Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun, Azərbaycan Respublikası Dövlət Elmi Tibb Kitabxanasının, Səhiyyə Nazirliyi Elmi Tibbi Şurasının və digər aidiyyəti təşkilatların aparıcı mütəxəssisləri hazırda bu istiqamətdə fəaliyyət göstərirlər.

Ümumi standartlaşdırma sisteminin yaradılması, həmçinin "Vahid Elektron Tibbi Kitabxana Sistemi"nin, şəbəkəsinin və internet resurslarının inkişaf etdirilməsini nəzərdə tutur. İnzibati idarəetmənin təkmilləşdirilməsi məqsədilə milli resursların səmərəli istifadəsi üçün elektron proqram təminatlarından daha geniş miqyasda yararlanmaq planlaşdırılır. Həmçinin "Kadrların Avtomatlaşdırılmış Uçot Sistemi"nin inkişafı kadr resurslarının daha təkmil idarə olunmasına xidmət edəcək. Müvafiq proqram vasitələrinin tətbiqi sayəsində "Vahid Səhiyyə İnformasiya Sistemi" məlumat bazalarının daha asan və sürətlə təhlil olunması bu istiqamətdə fəaliyyətdən daha bir gözləntidir.

Qeyd etmək lazımdır ki, on ildən çoxdur ki, Səhiyyə Nazirliyində səhiyyənin bütün sahələrini əhatə edən informasiya sistemləri və məlumat bazalarının yaradılmasına başlanıb və bu proses bu gün də uğurla davam etdirilir. Artıq "Vətəndaşların Elektron Sağlamlıq Kartı Sistemi" və altsistemləri, "Kadrların Avtomatlaşdırılmış Uçot Sistemi" və altsistemləri, "Vahid Qan Bankı Sistemi", "Yoluxucu Xəstəliklərin Elektron Müşahidə Sistemi", "Tibbi Müayinə Kartı Sistemi", "Vahid Elektron Tibb Kitabxanası Sistemi" ölkə üzrə tətbiq edilib. Bununla yanaşı, Bakı şəhərində "Nümunəvi Tibbi İnformasiya Sistemi", "Görüntülərin arxivləşdirilməsi və ötürülməsi mərkəzləşdirilmiş sistemi" (PACS), "Mərkəzləşdirilmiş Laboratoriya Sistemi", Səhiyyə Nazirliyinin və Bakı şəhərinin Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyalarının "103" və "113" dispetçer xidmətlərinin avtomatlaşdırılmış sistemləri də tətbiq olunub ki, bu da ümumilikdə səhiyyənin informasiyalaşdırılması istiqamətində mühüm addımlardır.

Əlamətdardır ki, indiyədək Səhiyyə Nazirliyi tərəfindən informasiya sistemlərinin tətbiqi sahəsində 38 elektron xidmət istifadəyə verilib, müxtəlif tibbi registrlərin və vətəndaşlar üçün nəzərdə tutulmuş bir çox tibbi arayışların elektron bazaları yaradılıb. Həmçinin bir sıra dövri hesabatların elektron məlumat bazalarından əldə edilməsi səhiyyə sahəsində təhlil və proqnozlaşdırma işini asanlaşdırıb.

Qeyd olunan informasiya sistemləri və altsistemlərinin "Vahid Səhiyyə İnformasiya Sistemi"ndə birləşdirilməsi üzrə işlər hazırda yekunlaşmaq üzrədir. Mühüm məqamlardan biri də odur ki, bu vahid sistemin digər qurumların informasiya sistemlərinə və "Elektron Hökumət" portalına inteqrasiyası da təmin edilib.

"Tədbirlər planı"nın elektron səhiyyə infrastrukturuna həsr olunan bəndinin hazırda üzərində iş gedən daha bir yarımbəndi rəqəmsal reseptlərin verilməsi ilə bağlıdır. Bununla əlaqədar İşçi qrup bir sıra istiqamətlərdə hazırlıq işlərinin aparılmasını nəzərdə tutur. O cümlədən rəqəmsal resept verilməsinin tətbiqinə dair Texniki Tapşırıq Təklifləri layihəsi, rəqəmsal resept standartı hazırlanmalı, belə reseptlərin tətbiq olunduğu ölkələrin təcrübəsi öyrənilməlidir.

Artıq rəqəmsal resept verilməsinin tətbiqinə dair Texniki Tapşırıq Təklifləri layihəsi hazırlanıb və hazırda onun ekspertizası aparılır.

"Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"ndə nəzərdə tutulur ki, bu sənədlə müəyyənləşdirilmiş prioritetlərin həyata keçirilməsi və inteqrasiya edilmiş fasiləsiz elektron səhiyyə infrastrukturunun yaradılması nəticəsində 2020-ci ildə dövlət büdcəsi xərclərinə 60 milyon manat, səhiyyə xərclərinə 7 faiz qənaət ediləcək. 2025-ci ildən sonrakı dövrdə isə artıq qurulmuş e-səhiyyə xidmətləri əsasında ölkənin səhiyyə sektorunda bütün proseslər rəqəmsallaşdırılacaq. Bu cür texnologiya əsaslı səhiyyə infrastrukturunun yaradılması nəticəsində Azərbaycanın rəqəmsallaşdırılmış səhiyyə xidmətləri sürətlə qabaqcıl regional təcrübəyə çevriləcək.

Strateji Yol Xəritələri arasında səhiyyəyə dair bəndlər olan və Səhiyyə Nazirliyi qarşısında vəzifələr qoyulan sənədlərdən ikincisi "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"dir.

Bu Strateji Yol Xəritəsinin icrasına dair "Tədbirlər planı"nda "Ərzaq təhlükəsizliyinin dayanıqlılığının təmin edilməsi üçün institusional potensialın gücləndirilməsi" adlı 1-ci Strateji hədəfin "Ərzaq təhlükəsizliyinin dayanıqlılığı və əhalinin ərzağa əlyetərliyi ilə bağlı məlumat və monitorinq sisteminin qurulması" bəndində 1.1.3-cü yarımbəndi "Rasional fizioloji normaların hazırlanaraq təsdiq olunması, bunun əsasında əhalinin ərzaq məhsulları üzrə cari və perspektiv tələbatının həcmi və ödənilməsi səviyyəsinin mütəmadi təhlili və qiymətləndirilməsi sisteminin qurulması" adlanır. Nazirlər Kabineti bu yarımbəndin əsas icraçısı, Səhiyyə Nazirliyi isə icraçılardan biri kimi müəyyən edilib. Nazirlər Kabinetinin bununla bağlı 17 fevral 2017-ci il tarixli sərəncamında Səhiyyə Nazirliyinə tapşırılıb ki, Kənd Təsərrüfatı, Əmək və Əhalinin Sosial Müdafiəsi, İqtisadiyyat nazirlikləri, Dövlət Statistika Komitəsi və yerli icra hakimiyyəti orqanları ilə razılaşdırmaqla, həmin yarımbənddə nəzərdə tutulmuş göstəricilərin - ölkə əhalisi üçün rasional fizioloji istehlak normalarının müəyyənləşdirilməsi, həmçinin bu normalar əsasında əhalinin ərzaq məhsulları üzrə cari və perspektiv tələbatının həcmi və ödənilməsi səviyyəsini mütəmadi təhlil etmək və qiymətləndirmək üçün müvafiq sistemin qurulması barədə təkliflərini Nazirlər Kabinetinə təqdim etsin.

Bununla bağlı olaraq Səhiyyə Nazirliyində yaradılmış İşçi qrupu ölkə əhalisi üçün rasional fizioloji normalar layihəsi hazırlayıb. Sənəd razılaşdırılmaq üçün aidiyyətli qurumlara göndərilib. Hazırda dövlət qurumlarından daxil olmuş təkliflər əsasında sənəd layihəsində müvafiq dəyişikliklər aparılır.

Birinci Strateji hədəfin "Dəyər zəncirinin bütün mərhələlərini əhatə edən və risklərin təhlili yanaşmasına əsaslanan qida təhlükəsizliyi sisteminin formalaşdırılması" adlanan bəndinin bütün yarımbəndlərində də Səhiyyə Nazirliyi icraçı tərəflərdən biri olaraq, öz təklif və rəyləri ilə onların həyata keçirilməsində iştirak edir. Bu bənddə mövcud qanunvericiliyin qabaqcıl beynəlxalq təcrübə əsasında təkmilləşdirilməsi, qida təhlükəsizliyinə nəzarət sahəsində müxtəlif orqanların fəaliyyətində paralelliyin aradan qaldırılması və effektiv tənzimləmə sisteminin qurulması, yeyinti məhsullarının istehsalı, emalı, saxlanılması, daşınması və ticarəti üzrə standartların beynəlxalq tələblərə uyğunlaşdırılması, qida təhlükəsizliyi üzrə laboratoriyalar şəbəkəsinin optimallaşdırılması, modernləşdirilməsi, akkreditasiyadan keçirilməsi və sertifikatlaşdırılması, bu sahədə ictimai nəzarət mexanizmlərinin təkmilləşdirilməsi kimi məsələlər yer alır.



**Oqtay ŞİRƏLİYEV,**
**Azərbaycan Respublikasının səhiyyə naziri.**

"Tədbirlər planı"nın 1.3.6-cı yarımbəndi sağlam qidalanmanın təşviq edilməsini nəzərdə tutur. Təbii ki, hər bir həkim öz fəaliyyətində əhalinin sağlamlığını və konkret pasiyentinin səhhətini nəzərə alaraq, sağlam həyat tərzini təşviq və təbliğ edir, öz tövsiyələrində sağlam qidalanmanın əhəmiyyətini vurğulayır.

Daha bir Strateji Yol Xəritəsində - "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə də səhiyyəyə dair bəndlər var.

Sənəddə Azərbaycanın müxtəlif turizm növləri üzrə potensialını şərh edərkən bildirilir ki, sağlamlıq turizmi baxımından ölkəmizdə həm ənənəvi, həm də müasir müalicə imkanları mövcuddur. Məsələn, isti və mineral bulaqların sayı minlərlədir və bunlardan İstisu, Turşsu, Badamlı, Qalaaltı, Şıxburnu, Suraxanı suları ən tanınmış müalicəvi su mənbələrindəndir. Azərbaycanın ən mühüm kurort resurslarından biri olan Naftalan neftindən yel xəstəliyinin, damarlarda və hərəkət orqanlarında olan xəstəliklərin, həmçinin maddələr mübadiləsinin pozulması, dəri və ginekoloji xəstəliklərin müalicəsi zamanı istifadə olunur. Naxçıvan Muxtar Respublikası nadir duz dağı ilə çox məşhurdur.

Strateji Yol Xəritəsinin icrası üzrə "Tədbirlər planı"nın "Yerli və regional turistlər üçün regional turizm növlərinin inkişaf etdirilməsi" adlı 3-cü Strateji hədəfinin 3.1-ci bəndi "Sağlamlıq turizmi üçün tələbatın yenidən formalaşdırılması" adlanır. Bu bəndin 3.1.1-ci yarımbəndi sağlamlıq turizmi üzrə 2017-2020-ci illəri əhatə edən fəaliyyət planının hazırlanmasını nəzərdə tutur.

Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun mütəxəssisləri tərəfindən bu fəaliyyət planı üçün təkliflər paketi hazırlanıb və təqdim olunub. Burada qeyd edilir ki, ölkəmizin təbii müalicəvi kurort amilləri ilə zəngin olması müalicəvi-sağlamlaşdırıcı turizmin inkişafı üçün xüsusi şərait yaradır. İqlim, mineral sular, naftalan və palçıq kimi təbii kurort amilləri hazırda müalicəvi turizm məqsədilə istifadə olunur. Bu gün fəaliyyət göstərən iqlim balneoloji kurortların bazasında sağlamlaşdırıcı tədbirlərin yeni növləri, SPA, velnes, fitnes və s. kimi texnologiyaların həyata keçirilməsi çox vacibdir. Bildirilir ki, Azərbaycanda müalicəvi-sağlamlaşdırıcı turizmin səviyyəsini daha yüksək pilləyə qaldırmaq üçün ölkəmizdə turizmin bu növünün inkişafını əks edirən və təbliğ edən reklam xarakterli informasiyaların, internet portallarının, elmi-populyar nəşrlərin, bukletlərin hazırlanması və yayımlanması, müalicəvi turizm infrastrukturunun inkişafının dəstəklənməsi, bu sahədə peşəkar kadrların hazırlanması, bu məqsədlə universitetlərdə, kolleclərdə xüsusi fakültələrin yaradılması və digər bu kimi tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur.

"Sağlamlıq turizmi üçün tələbatın yenidən formalaşdırılması" bəndinin "Naftalan nefti əsasında mövcud və yeni sağlamlıq məhsullarının təşviqi" adlı digər yarımbəndinin icrası məqsədi ilə də təkliflər hazırlanıb.

Son olaraq qeyd etmək istərdim ki, Azərbaycanın tibb işçiləri ölkə səhiyyəsi qarşısında qoyulan bütün vəzifələri əzmlə yerinə yetirərək, əhalimizin sağlamlığının qorunması üçün var qüvvə ilə çalışırlar və dövlət başçısı cənab İlham Əliyevin sosialyönümlü siyasətinin uğurla həyata keçirilməsi naminə bundan sonra da qüvvələrini əsirgəməyəcəklər. ■

*D.Savelyev:*

## Bakı-Tbilisi-Qars dəmir yolu Azərbaycana Avrasiyanın ən böyük logistika hablarından birinə çevrilmək imkanı verir

*Bu yaxınlarda Moskvada keçirilmiş "Rusiya nəqliyyatı" XII Beynəlxalq Forumuna rekord sayda iştirakçı gəlib. Tədbirdə nəqliyyat sektorunun liderləri və dövlət orqanlarının nümayəndələri əsas nəqliyyat vasitələrinin inkişafı məsələlərini müzakirə ediblər. Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri, RF Dövlət Dumasının deputatı Dmitri Savelyev iki ölkə arasında nəqliyyat sahəsində əməkdaşlığın perspektivlərindən bəhs edib.*

**- Dmitri İvanoviç, mötəbərlik baxımından ötən forumu necə qiymətləndirirsiniz?**

- Nəqliyyatı nahaq yerə iqtisadiyyatın qan damarı adlandırmırlar: hər hansı dövlətin iqtisadi inkişafının dinamikası əhəmiyyətli dərəcədə ondan asılıdır. Bu səbəbdən forum peşəkarlarda böyük maraq doğurub: onun işində bu sahəyə aid 910 şirkətin 3500-dən çox mütəxəssisi iştirak edib. Təkcə çıxışçıların sayı 300 nəfərdən çox olub. Tədbirdə, həmçinin 18 ölkənin, o cümlədən son illər regional nəqliyyat infrastrukturunun inkişafında əhəmiyyətli rol oynayan Azərbaycanın nəqliyyat idarələrinin nümayəndələri iştirak ediblər. Ölkənin əlverişli coğrafi mövqeyi, irimiqyaslı layihələrin həyata keçirilməsi, həmçinin tranzit və yükdaşımaları potensialının səmərəli istifadəsi Azərbaycan iqtisadiyyatına böyük uğurlar qazandırıb.

**- Rusiya ilə Azərbaycan arasında nəqliyyat sahəsində əlaqələr nə dərəcədə aktivdir?**

- Bu sahədə ölkələrimiz arasında zəruri hüquqi-normativ baza işlənib hazırlanıb, dəmir yolu, avtomobil və hava nəqliyyatı növləri üzrə bir sıra hökumətlərarası sazişlər imzalanıb. Hazırda ticarət gəmiçiliyi, Azərbaycan gəmilərinin Rusiyanın daxili sularında üzməsi şərtləri üzrə sazişlərin layihələri nəzərdən keçirilir. İki ölkənin şəhərləri arasında 100-ə yaxın müntəzəm aviareyslər fəaliyyət göstərir. Müxtəlif istiqamətlərdə 30-dan çox mütəmadi avtobus marşrutları mövcuddur. Azərbaycanla Dağıstanı birləşdirəcək yeni dəmir yolu xətti üzrə müzakirələr aparılır, ən yaxın gələcəkdə isə Mahaçqala və Bakı arasında birbaşa aviareysin həyata keçirilməsi nəzərdə tutulur.

**- Yəqin ki, sərhədyanı iqtisadi əlaqələr avtomobillə yükdaşımaların həcminin artmasına xüsusi stimul verir.**

- Elədir, son vaxtlar Rusiya-Azərbaycan quru sərhədi ilə avtomobil yolu əlaqəsinin səmərəliliyinə dair layihələrə daha çox ehtiyac duyulur. Bizim yol idarələri Azərbaycanla sərhədə qədər uzanan R-217 "Qafqaz" trasında genişhəcmli iş aparırlar. Öz növbəsində, Prezident İlham Əliyev Bakıdan Rusiyanın sərhədinədək yeni avtomagistralın tikintisi ilə bağlı tapşırıq verib. İki ildən sonra o, istifadəyə veriləcək.

Bir il əvvəl Samur (Azərbaycan) və Yaraq-Qazmalar (Rusiya) keçid məntəqələri rayonunda dövlət sərhədindən keçməklə yeni avtomobil körpüsünün tikintisinə başlanılıb. Samur çayı üzərindən keçən bu körpünün tikintisi paritet əsaslarda maliyyələşdirilir və növbəti ilin üçüncü rübündə başa çatacaq. Rusiya Samurun ona aid olan hissəsində bütün zəruri gömrük infrastrukturu, o cümlədən aksiz malları üçün hazırda mövcud olmayan xüsusi post yaradacaq.

**- Rusiya və Azərbaycan arasında nəqliyyat sahəsində əməkdaşlıqdan danışarkən "Şimal-Cənub" nəqliyyat dəhlizi mövzusuna toxunmamaq mümkün deyil. Bu cür irimiqyaslı layihənin yaxın perspektivlərini necə qiymətləndirirsiniz?**

- Mən onu əsrin layihəsi adlandırardım. Axı, "Şimal-Cənub" dəhlizi faktiki olaraq Süveyş kanalına alternativ təşkil edir. Onun Hindistanın Mumbai limanından bizim Sankt-Peterburqa qədər 7,2 min kilometr məsafədə uzanan quru və dəniz marşrutları ilə yüklər təxminən 30-40 faiz daha sürətlə daşınacaq. Azərbaycan marşrutun istifadəyə verilməsi üçün infrastruktur üzərində işləri başa çatdırıb. Bundan başqa, Azərbaycan tərəfi İran Astarasında terminal istifadəyə verib və qonşu ölkəyə Xəzərin sahillərlinədək uzanacaq Rəşt-Astara dəmir yolu xəttinin çəkilməsi üçün kredit ayırıb. Artıq nəqliyyat dəhlizi fəaliyyətə başlayıb: cari ilin yeddi ayı ərzində bu marşrutla yükdaşımaların həcmi 170 min ton təşkil edib.

Digər irimiqyaslı layihə ötən il istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu xəttidir. Bu, açıq dənizlərə çıxışı olmayan Azərbaycana Avrasiyanın ən böyük logistika hablarından birinə çevrilmək imkanı verir. Xüsusən, bir neçə ay əvvəl açılışı olmuş Abşeron Logistika Mərkəzi vaxta qənaət etməyə və yükdaşıma şirkətlərinin nəqliyyat xərclərini azaltmağa imkan verir. Ələt qəsəbəsində tikintisi davam edən Beynəlxalq Dəniz Limanı da bu məqsədlərə xidmət edir və regionda avtomobil, dəmir yolu və dəniz yollarının kəsişmə məntəqəsi olacaq.

**- Ələt dəniz limanından söz düşmüşkən, dənizçilik sahəsində əməkdaşlıqdan da danışmaq yaxşı olar. Axı, Azərbaycan Xəzər dənizində ən böyük donanmaya malikdir. Xəzərdə birgə dəniz turizmi inkişaf edirmi?**

- Unikal və analoqu olmayan turizm layihəsi - Xəzər dənizində kruiz marşrutu hazırlanır. Hazırda Həştərxandakı "Lotos" gəmiqayırma zavodunda - çay-dəniz" tipli "Pyotr Veliki" kruiz gəmisi inşa edilir. O, 2019-cu ildə istismara veriləcək və biz Xəzər dənizində kruiz səyahətlərinə başlayacağıq. Bu özünəməxsus səyahət gəmisinin marşrutu turistlərə Xəzəryanı ölkələrin sahil şəhərlərini gəzmək imkanı verəcək. Azərbaycan tərəfi ölkələrimizə qarşılıqlı gəlir gətirəcək bu layihədə tərəfdaşlıq haqqında sazişi artıq imzalayıb.

Qeyd edim ki, turizmin inkişafı təkcə iqtisadiyyatın nəqliyyat sahəsinin deyil, digər sektorların inkişafına da təkan verir. Bir neçə rəqəmi misal çəkmək istəyirəm: yanvar-oktyabr aylarında 752 min vətəndaşımız Azərbaycana səyahət edib. Ölkəmiz əcnəbi turistlərin sayına görə birinci yerdədir. Rusiyalılar Odlar diyarının tarixi yerlərini həvəslə ziyarət edirlər, dağxizəkçiliyi kurortlarına və yay istirahəti zonalarına gedirlər. Yaxın vaxtlarda bu imkanlara dəniz turizmi də əlavə olunacaq. Bütün bunlar ölkələrimizin bir-birinə artan marağının təzahürüdür. Axı, biz eyni dildə danışırıq, ortaq tariximiz var və bu amillər Rusiya ilə Azərbaycan arasında davamlı və səmərəli əməkdaşlığın təməlini təşkil edir.

**AZƏRTAC**

## Bu il respublikanın 56 rayon və şəhərində əmək yarmarkası keçirilib

**Yarmarkalarda 4,1 min şəxsə vakant iş yerlərinə göndəriş verilib.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən cari ilin ötən dövründə ölkəmizin 56 rayon və şəhərində əmək yarmarkaları keçirilib. Nazirlikdən verilən məlumata görə, yarmarkalarda işaxtaran və işsiz vətəndaşlara onların yaşadıqları ərazilərdəki müəssisələrdən vakant iş yerləri təklif edilib. 4,1 min şəxsə seçdikləri və əmək bacarıqlarına uyğun olan vakant iş yerlərinə göndəriş verilib. Bu günədək onlardan artıq 85 faizi həmin göndərişlər əsasında uyğun işlə təmin olunublar. Göndərişlər əsasında məşğulluğu təmin olunanların bir hissəsini sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər təşkil edib.

Əmək yarmarkaları zamanı 209 nəfər ödənişli ictimai işlərə cəlb olunub. Peşə və ixtisası olmayan, yaxud peşə bacarığına uyğun iş tapmaqda çətinlik çəkən 276 nəfər əmək bazarının tələblərinə uyğun peşələr üzrə peşə hazırlığı və əlavə təhsil kurslarına cəlb edilmələri üçün qeydiyyata götürülüb.

**Mustafa KAMAL,**
**"Respublika".**

# İllər, səndə nəyim qaldı...

**...İllər, səndə nəyim qaldı?!. Ritorik sualdır, həm də düşündürücü. Elə bir insan tapılmaz ki, ömrün müəyyən məqamında bu sualla baş-başa qalmamış olsun. Bax, onda bütün olub-keçənlər, yaşananlar bir kino lenti kimi göz önündən gəlib keçir, illərin yaddaşlarda qoyduğu izin sorağına düşüb bu sualın cavabını axtarmağa çalışırsan. İllərin sənə, sənin ona verib-aldıqlarını mizan-tərəzi ilə ölçüb-biçib özün, doğmaların, ətrafdakılar, cəmiyyət üçün etdiklərinin dəyərini bilmək istəyirsən. Beləcə, sən kimsən, bu həyatı niyə, necə yaşadın və yaşamağa dəyərdimi kimi suallara da cavab taparsan...**

Düşünürəm indi ömrünün altıncı onilliyinin tamamında Əli müəllim də yaddaşını vərəqləməkdədir. Bəlkə də çətindir, altmış il oyana boylanıb itirdiklərini, qazandıqlarını birər-birər xatırlamaq, uşaqlığını, yeniyetməliyini, gəncliyini qurban verdiyi illərin özü də hiss etmədən onu yetkinlik, müdriklik çağına gətirib çıxarmağın fərqinə varmaq... 1958-ci il 11 noyabr. Gürcüstan Respublikasının Qardabani rayonunun Qaratəhlə kəndində çoxuşaqlı bir ailədə məhz bu tarixdə dünyaya gəlib. Adi kənd uşağı kimi kənd qayğıları ilə yüklənsə də, oxumağa, təhsilə marağı sönməyib. 1976-cı ildə Qaratəhlə kənd orta məktəbini bitirdikdən sonra ali məktəbə qəbul olmaq cəhdi boşa çıxıb, elə həmin il "Qaçiani" südçülük-tərəvəzçilik sovxozunda əmək fəaliyyətinə başlayıb. Bir il sonra indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsinə daxil olub. Bu da təsadüfi deyildi, çünki humanitar sahəyə, xüsusən də ədəbiyyata böyük maraq göstərən Əli hələ orta məktəbdə oxuyarkən dövri mətbuatda müxtəlif səpgili yazılarla çıxış edir, "Sovet Gürcüstanı" qəzeti ilə daha sıx əməkdaşlıq edirdi.

Ali məktəbi bitirib təyinatla doğma kəndinə qayıdan Əli müəllim bir zaman təhsil aldığı kənd orta məktəbində dil-ədəbiyyat müəllimi kimi əmək fəaliyyətini davam etdirir. Həmin müddətdə işinin, qayğısının, çox olmasına baxmayaraq, mətbuatla əlaqələrini daha da gücləndirir. Peşəsini nə qədər sevsə də, yazmaq həvəsi onu deyəsən başqa bir səmtə çəkirdi: Böyük mətbuata. Bu istəyi isə Qaratəhlədə qalıb işləməklə gerçəkləşdirmək mümkün deyildi. Beləcə, Bakı həyatı onun qarşısında yeni yollar, yeni üfüqlər açır, 1990-cı ildən başlayaraq bir sıra mətbuat orqanlarında çalışıb püxtələşir, jurnalistikanın sirlərinə yiyələnir. Mən deyərdim ki, 2001-ci ildən işləməyə başladığı "Respublika" qəzeti Əli müəllim üçün əsl məktəb olur. İşini bilən, peşəkar, təcrübəli jurnalistlərdən dərs alır, öyrənir, bilmədiklərini soruşmaqdan çəkinmir, əksinə, onu özünə fəxr bilir. Bu isə ilk növbədə Əli müəllimin sadəliyindən, bir az da təvazökarlığından irəli gəlirdi. Bir sözlə, "Əli Sadıqov" imzasını tanıtmaq, özünü təsdiqləmək, oxucu rəğbəti qazanmaq üçün hər cür zəhmətə qatlaşıb, hər məsələyə məsuliyyətlə yanaşırdı. Elə buna görə də iqtisadiyyat şöbəsinin baş müxbiri Əli Sadıqov bu illər ərzində maraqlı məqalələri, analitik yazıları, reportajları ilə oxucuların yaddaşında qalıb, yazdıqları orjinallığı, üslub tərzi, qoyulan məsələlərin əhəmiyyəti baxımından seçilib. Onun bu əməyi, jurnalistlik fəaliyyəti "Qızıl qələm" mükafatı ilə də qiymətləndirilib.

Yazının əvvəlində qeyd etdik ki, Əligilin ailəsi böyük idi, uşaqların, demək olar ən kiçiyi olan Əli qayğıkeşliyi ilə onların hamısından fərqlənirdi. Bu keyfiyyət onu sonralar da tərk etmədi, əksinə, Bakı mühitində yaşasa da, doğma yerlərlə əlaqəni heç vaxt kəsmədi, bacı-qardaşlarının problemlərini həll etməyə çalışdı, onlara arxa-dayaq oldu. O dövrdə müxtəlif vəzifələrdə işləyən, atası Tanrıqulu Sadıqovun tövsiyələrini, ata nəsihətini unutmadı. Halal qazanc, alın təri, zəhmətlə çalışıb ailəsini heç vaxt sıxıntıda qoymayan Tanrıqulu müəllim, əslində Əlinin lap uşaqlıqdan həyat idealı idi. Elinin-obasının sayılıb-seçilən ziyalısı, hörmət sahibi olan atası ilə həmişə qürur duyurdu. Bu gün gözəl ailə başçısı, xoşbəxt ata kimi övladlarına atadan, ailənin əxz etdiyi ən gözəl keyfiyyətləri təlqin etməyə çalışır. Övladları, qızı Fatimə də, oğlu Səmay da ali təhsil alıb cəmiyyətə yararlı vətəndaş kimi yetişiblər. Qızı Fatimə ailəlidir, bir övladı var. Məryəm... Adı dilindən düşməyən Məryəm Əli müəllim üçün dünyanın ən gözəl nemətidir, ona baba xoşbəxtliyi, baba sevincini yaşatdığına görə. Tanrısına nə qədər minnətdardır, bilsəniz: "Çox gözəl hiss, çox gözəl duyğudur, onunla keçirdiyim dəqiqələrdə bütün çətinlikləri, problemləri unudur, onun dünyasına qapanıram. Nəvə Tanrının ən gözəl payıdır, illərin mənə verdiklərinin ən dəyərlisidir" — deyir Əli müəllim.

Hər bir ailə kiçik bir cəmiyyətdir deyirlər, bu cəmiyyətin necə idarə olunması ailə başçısından çox asılıdır. O da kiçik ailəsi—cəmiyyətinin düzəninin pozulmaması, ailə münasibətlərinin milli-mənəvi dəyərlərimiz əsasında qurulması və möhkəmlənməsi, onun daimi olması üçün öz üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gələ bilib. Bununla da öyünməyə, qürur duymağa dəyər.

Tanrı insanı hər cür sınağa çəkir, əsl dostu, yoldaşı da məhz belə dar gündə tanıyırsan. Onu tanıyanlar da Əli müəllimi dosta həyan, dar gündə dayaq ola biləcək adam kimi dəyərləndirirlər. Elə Əliyə uzun illərdən bəri işlədiyi "Respublika"



qəzetinin kollektivi arasında hörmət qazandıran keyfiyyətlərindən biri də budur.

Əli Sadıqov hansı sahədə çalışmasından asılı olmayaraq, həmişə vəzifə borcunu layiqincə yerinə yetirib. Hələ orta məktəbdə müəllim işlədiyi vaxtlarda məktəbin ictimai həyatında fəal iştirak edir, gənc nəslin təlim-tərbiyəsi, savadlı, bilikli mütəxəssis kimi yetişməsi, əsl insan kimi formalaşması üçün bacarığını əsirgəmirdi. Müəllim-şagird münasibətindəki uğurlarına görə o həmkarlarının çoxuna nümunə idi. Təsadüfi deyil ki, vaxtilə dərs dediyi şagirdləri bu gün də onu minnətdarlıq hissi ilə xatırlayır, ünvanına xoş sözlər söyləyirlər. Əli müəllim deyir: "Həyat insanı taleyin yazdığı yola çəkir həmişə. Müəllimlik gözəl, müqəddəs peşədir və mən bu sahədə sevə-sevə çalışmışam. Ancaq sonra mətbuat sahəsinə gəldim. Ölkənin nüfuzlu mətbuat orqanlarından birində işləmək böyük məsuliyyətdir. Mən qəzetin səhifələrində hər dəfə öz imzamı görəndə məmnunluq hissi keçirir, bu sahədə püxtələşməyimdə əməyi olan təcrübəli həmkarlarıma, rahat işləməyim üçün şərait yaradan qəzet rəhbərliyinə özümü mənən borclu bilirəm. Açığını deyim, vaxtilə dərs dediyim, indi müxtəlif vəzifələrdə çalışan şagirdlərimin uğurlarına da onların özləri qədər sevinirəm. Düşünürəm ki, bu uğurda mənim də az-çox payım var...".

Bəli, Əli müəllim də bütün qələm sahibləri kimi. sadə yaradıcı ömrü yaşayıb, zəhmətlə dolu bir ömür. Onun səhifələrinin mənə bəlli olan tərəflərini bu yazıda açıqlamağa, qarşısında duran suala cavab tapmasına yardımçı olmağa çalışdım. Bilmirəm, kim-kimə borclu qalıb, illərmi ona, omu illərə?!. Bir də ki, həyat davam edir, qarşıda neçə onilliklər var hələ. Kim bilir, illər ona daha nə kimi sürprizlər gətirəcək. Sürprizlərin bol, Tanrı payın çox olsun Əli müəllim!..

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**

# Bakı Şəhər İcra Hakimiyyətində payız-qış mövsümünə hazırlıqla bağlı müşavirə

**Bakı Şəhər İcra Hakimiyyətində 2018-2019-cu ilin payız-qız mövsümünə hazırlığın yekunu, qış aylarında icra qurumları və təsərrüfat xidmətlərinin qarşısında duran vəzifələrə həsr olunmuş paytaxt rayonları icra hakimiyyətlərinin başçıları, şəhər təsərrüfatı və xidmət sahələrinin rəhbərlərinin iştirakı ilə müşavirə keçirilmişdir. Müşavirədə bildirilmişdir ki, ölkə başçısı cənab İlham Əliyevin tapşırıqlarına əsasən paytaxtda qış mövsümünə hazırlıq, şəhərdə genişmiqyaslı quruculuq və abadlıq işlərinin görülməsi, yeni infrastruktur layihələrinin həyata keçirilməsi ilə bağlı xüsusi proqram hazırlanır.**



Mövsümə hazırlıqla əlaqədar Bakı Şəhər İcra Hakimiyyətində xüsusi Qərərgah yaradılıb, tədbirlər planı təsdiq olunub. Eyni zamanda paytaxtın bütün rayonlarında, idarə və müəssisələrində, Şəhər İcra Hakimiyyəti tərkibində fəaliyyət göstərən departament və təşkilatlarda, həmçinin "Azəriqaz" İB, "Azərişıq" ASC, "Azərsu" ASC, Bakı Su-Kanal İdarəsi, "Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi", Bakı Nəqliyyat Agentliyi tərəfindən də mövsümə hazırlıqla bağlı tədbirlər planları hazırlanıb, rayonlara şəhər icra hakimiyyətinin qış mövsümü ilə bağlı tövsiyələri paylanılıb.

Müşavirədə qış aylarında havaların kəskin soyuq, qarlı-şaxtalı keçən günlərində Qərargah üzvlərinin, bütün rayonların təsərrüfat xidmətlərinin xüsusi rejimdə çalışacağı, hər hansı ciddi hal yaranarsa, onun dərhal aradan qaldırılması məqsədi ilə operativ tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib. Əsas, köməkçi, məhəllədaxili yolların, səkilərin, obyektlərin qarşısının vaxtında qardan təmizlənməsi üçün bu işlərə cavabdeh təşkilatlar müəyyənləşdirilib, şəhər və rayonlardakı kommunal qurumların, digər idarə və təşkilatların sərəncamında olan xüsusi texnikalar saz vəziyyətə gətirilib, kifayət qədər inventar, qum və duz tədarükü görülüb, işçilər arasında xüsusi iş qrafiki təsdiq olunub.

**Müşavirədə binaların lift təsərrüfatlarının yenilənməsi məsələsinə xüsusi toxunulub. Bildirilib ki, ölkə başçısının paytaxtın lift təsərrüfatının yenilənməsi istiqamətində verdiyi tapşırıqlarının icrası ilə bağlı yeni layihə hazırlanıb, maliyyə vəsaiti ayrılıb və tədbirlər artıq fevral-mart aylarında reallaşacaqdır. Bu işlər şəhər icra hakimiyyətinin nəzarətində saxlanılır.**

Müşavirədə, həmçinin yaşayış binalarının dam örtüklərinin, blokların təmiri, ümumi istifadə yerlərinin şüşələnməsi, qanunsuz tikinti işləri aparılmasının qarşısının alınması, rayonlarda abadlıq işlərinin görülməsi, sakinlərin istifadəsi üçün yeni abad məhəllələrin yaradılması ilə bağlı məsələlər müzakirə olunmuşdur.

Şəhərdə məişət tullantılarının daşınması ilə bağlı isə bildirilmişdir ki, tullantıların daşınması üçün 2 xarici şirkət tərəfindən hazırlanan təkliflər təsdiq olunduqdan sonra bu sahədə geniş islahatlara başlanacaq, yeni konteynerlər alınacaq, eyni zamanda mövcud konteynerlər də təmir olunaraq onlardan istifadə olunacaqdır.

**Məhəmməd VƏLİYEV,**
**"Respublika".**

*Arsen Baqdasaryan:*

# Evə qayıtmağıma kömək edin!

**Xəbər verildiyi kimi, 1994-cü il təvəllüdlü, 2014-cü il dekabrın 26-da Azərbaycan Respublikasının Ağdam rayonunda qoşunların təmas xəttində təxribata cəhd edərkən saxlanılmış və Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2015-ci il 5 may tarixli qətnaməsi ilə 15 il azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş erməni hərbi qulluqçu Arsen Eduardoviç Baqdasaryan "hamının-hamıya" prinsipi üzrə azadlığa buraxılması ilə bağlı Ermənistanın baş nazirinin səlahiyyətlərini icra edən Nikol Paşinyana müraciət göndərib.**



**AZƏRTAC xəbər verir ki, bununla bağlı noyabrın 28-də Arsen Baqdasaryan Azərbaycan KİV-lərinin suallarını cavablandırıb. Həmin müsahibəni oxuculara təqdim edirik.**

**-Bildiyiniz kimi, Azərbaycan bütün hərbi əsirlərin və girovların "hamının-hamıya" prinsipi üzrə dəyişdirilməsi təklifi ilə çıxış edib. Lakin Ermənistan hökuməti nədənsə bunu etmək istəmir. Necə düşünürsünüz, Ermənistan bu humanist prinsipi niyə dəstəkləmir?**

-Mən Azərbaycan tərəfinin beynəlxalq təşkilatlar vasitəsilə rəsmi təklif göndərdiyini bilirəm. Bu barədə mənə Azərbaycanın səlahiyyətli orqanları məlumat veriblər. Lakin, təəssüf ki, erməni tərəfi mənim taleyimə biganə yanaşdı. Mənə göndərilən bildirişin mətnini oxuya bilərəm: "Arsen Eduardoviç, biz, Azərbaycan tərəfi beynəlxalq təşkilatlar vasitəsilə Ermənistana bütün hərbi əsirlərin və girovların "hamını-hamıya" prinsipi üzrə azad edilməsi barədə rəsmi təklif göndərmişik. Lakin, təəssüf ki, ordusunda xidmət keçdiyiniz erməni tərəfi Sizin taleyinizə biganə yanaşır". Axı, mən həyatımın iki il yarımını Qarabağ torpaqları uğrunda müharibəyə vermişəm, hərbçi sözləri ilə söyləsək, azərbaycanlılar üçün "düşmən", "rəqib" olmuşam və hər an məni öldürə bilərdilər.

**-Bizə məlum olduğu kimi, erməni tərəfi digər əsirlərin taleyi ilə də maraqlanır. Məsələn, Nikol Paşinyanın arvadı Anna Akopyan Karen Kazaryanın ailəsinə iki dəfə baş çəkib. Niyə məhz Sizə bu cür biganəlik göstərilir?**

-Ona görə ki, digərləri Ermənistan ərazisində doğulublar, mən isə keçmiş DQMV-nin paytaxtı Stepanakertdə - indiki Xankəndidə. Ermənistan üçün qarabağlıların heç bir dəyəri yoxdur, biz onlar üçün "Qarabağ eşşəkləriyik". Əgər Ermənistan məni bu respublikanın vətəndaşı hesab edirsə, onda erməni tərəfi Azərbaycanın müraciətinə müsbət cavab verməli idi.

**-Siz artıq kifayət qədər uzun zamandır ki, buradasınız. Sizin Nikol Paşinyana məktubla müraciət etməyiniz üçün suyu daşıran son damla nə oldu?**

-İlk növbədə, əlverişli siyasi mühit. 2016-cı ildən Azərbaycan tərəfi bütün hərbi əsirlərin və girovların "hamını-hamıya" prinsipi üzrə azad edilməsi təşəbbüsü ilə çıxış edir. O zaman "Qarabağ klanına" rəhbərlik edən Serj Sarkisyan hakimiyyətdə idi. Necə deyərlər, həbsxana insanı dözümlülüyə öyrədir və bu səbəbdən mən səbirlə gözləyirdim. İndi, Serj Sarkisyan və komandasının devrildiyi vaxtda, mən səlahiyyətli orqanlara mənə kömək göstərilməsi və Nikol Paşinyana xahişlə müraciət etməyim üçün buraya KİV nümayəndələrinin dəvət edilməsi barədə müraciət etməyə qərar verdim. Əslində, Azərbaycan tərəfi bu müraciəti göndərmək məcburiyyətində deyildi, axı, mən onların - Ermənistanda iyirmi ildən çoxdur təcavüzkar ölkə və humanizm göstərməyən tərəf kimi qələmə verilən Azərbaycanın düşməni idim. Əsl həqiqətdə isə, Azərbaycan tərəfi mənə qarşı humanizm nümayiş etdirir. Bəs erməni tərəfinin humanizmi harada qaldı? Bunu mənə kim izah edə bilər?

**-Azərbaycan tərəfinin təşəbbüsünü dəstəkləməsi üçün KİV-lər vasitəsilə Ermənistan rəhbərliyinə nə söyləmək istərdiniz?**

-Mən yalnız onu demək istəyirəm ki, əgər Nikol Paşinyan və onun həyat yoldaşı Anna Akopyan həqiqətən də öz xalqının qayğısına qalırlarsa, onda qoy Dilqəm Əsgərovu, Şahbaz Quliyevi və əsgər Elnur Hüseynzadəni azad etsinlər, Azərbaycan isə, öz növbəsində, doğmalarımız və yaxınlarımızla görüşmək üçün bizi sərbəst buraxır. Düşünürəm ki, erməni xalqı ölkə hakimiyyətindən Azərbaycan tərəfinin təşəbbüsünə müsbət cavab verilməsini tələb etməlidir.

**-Ermənistanda söz yayılıb ki, guya sizi söylədiklərinizi vərəqdən oxumağa məcbur edirlər. Bununla bağlı nə deyə bilərsiniz?**

-Söylədiklərimin hamısı öz fikirlərimdir. Mənə heç kim işgəncə verməyib və bunları deməyə məcbur etməyib. Hətta kameranı da çevirə bilərsiniz ki, divarlarda əvvəlcədən hazırlanmış heç bir mətnin olmadığı aydın görünsün. Görürsünüz, mən hər dəfə üzümü sual verən jurnalistə tərəf tuturam və təkcə kameraya deyil, həm də onun gözlərinə baxıram. Mən diktə altında heç bir söz söyləmirəm.

**-Yeri gəlmişkən, qoy bu sual sizin üçün standart səslənməsin. Sizin burada saxlanılma şəraitiniz necədir? Hər hansı xahişiniz varmı?**

-Mənim bir tək xahişim var - evimə qayıtmağıma kömək edin! Saxlanılma şəraitimlə bağlı deyə bilərəm ki, heç bir şikayətim yoxdur. Hətta mənə Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsilə doğmalarımla yazışmaq və "Skype"la danışmaq imkanı verilib. Səhhətimlə bağlı da heç bir problemim yoxdur. Dörd il ərzində, şükürlər olsun, bir dəfə də xəstələnməmişəm. Doğrudur, burada bizə ev yeməkləri vermirlər, amma qidalanma ilə bağlı hər şey normaldır. Hətta bir az kökəlmişəm.

Bundan başqa, mənə kitab oxumağa və sifariş etməyə də icazə verilib. Bu müddət ərzində rus və ingilis dillərində biliklərimi təkmilləşdirmişəm. Hazırda Çin dilini öyrənirəm.

**AZƏRTAC**

## DÜNYA BUGÜN

*FAKTLAR, HADİSƏLƏR, ŞƏRHLƏR*

### UKRAYNADAN RUSİYANI QƏZƏBLƏNDİRƏCƏK DAHA BİR ADDIM



Ukrayna Birləşmiş Ştatlarla ölkə ərazisində ABŞ hərbi bazasının mümkün tikintisi üzrə danışıqlar aparır. "Sputnik" informasiya agentliyinin məlumatına görə, bunu "İzvestiya" nəşri diplomatik mənbələrə istinadən xəbər verib.

Bildirilir ki, bu məlumatı Ukrayna Ali Radasının deputatı İvan Vinnik də təsdiqləyib. O, iddia edib ki, ABŞ bazası Kiyevə Moskvanın təhdidlərindən qorunmaq üçün lazımdır.

İvan Vinnik deyib: "Siyasi səviyyədən danışsaq, bu istiqamətdə amerikalılarla dialoq aparılır".

Eyni zamanda, Birləşmiş Ştatların siyasi dairələrində olan mənbə vurğulayıb ki, belə bir addım Moskva ilə Kiyevin münasibətlərini daha da kəskinləşdirə bilər. Ona görə də, Vaşinqton hələlik Kiyevə bununla bağlı zəmanət vermir.

Qeyd edək ki, Ukraynanın 10 vilayətində hərbi vəziyyət elan olunub. Hərbi vəziyyət 26 noyabr tarixindən 30 gün müddətinə, yəni dekabrın 26-na qədər nəzərdə tutulub.

Xatırladaq ki, noyabrın 25-də Kerç boğazı yaxınlığında Ukrayna və Rusiya gəmilərinin iştirakı ilə insident yaşanıb. Belə ki, boğazı keçməyə cəhd edən Ukrayna gəmiləri Rusiya dənizçilərinin dayanma tələbinə məhəl qoymayıblar. Bu zaman gəmilərdən biri taran edilib, onların saxlanılması üçün silahdan istifadə olunub. İnsident nəticəsində "Berdyansk", "Nikopol" və "Yanı Kapu" gəmiləri Krımda saxlanılıb.

Bununla yanaşı, hadisə zamanı üç ukraynalı hərbçi yaralanıb. Onlara tibbi yardım göstərilib. Qeyd edilir ki, yaralıların həyatı üçün təhlükə yoxdur.

Tərəflər baş verən insidentdə bir-birini ittiham edir. Ukrayna tərəfi gəmilərin keçidi barədə Rusiyaya öncədən xəbərdarlıq edildiyini və dəniz gəmiçiliyi barədə bütün beynəlxalq normalara uyğun addımlar atıldığını iddia edir. Öz növbəsində Rusiya tərəfi Ukraynanı biləsrəkdən provokasiya yaratmaqda, beynəlxalq qanunları pozmaqda və Rusiyanın ərazi sularına icazəsiz daxil olmaqda günahlandırır.

### RƏSMİ KREMLİN DONALD TRAMPA CAVABI GECİKMƏDİ



Rəsmi Kreml ABŞ prezidenti Donald Trampın Argentinada keçiriləcək "G20" sammiti çərçivəsində Vladimir Putinlə nəzərdə tutulan görüşünü ləğv etmə ehtimalına dair səsləndirdiyi fikirlərə diqqət çəkib. "Sputnik" informasiya agentliyinin məlumatına görə, bunu Rusiya prezidentinin mətbuat katibi Dimitri Peskov bildirib.

"Əgər Tramp Ukrayna gəmilərinin hərəkətini aqressiya kimi qəbul edirsə, onda bu, başqa bir məsələdir. Bunun aqressiya olub-olmaması barədə mübahisə aparmaq olar. Əgər o, Rusiya sərhədçilərinin Rusiya dövlət sərhədinin pozulması cəhdinin qarşısını almaq üçün etdiyi hərəkətləri aqressiya adlandırırsa, onda bu, tamamilə başqa bir məsələdir. Biz bununla razı deyilik" - deyə Dmitri Peskov vurğulayıb.

Rusiya prezidentinin mətbuat katibi həmçinin əlavə edib ki, ötən gün Ağ Evin rəsmi nümayəndəsi Sara Sanders Donald Trampın "G20" sammiti çərçivəsində Vladimir Putinlə ikitərəfli formatda danışıqlar aparacağını təsdiqləyib.

Qeyd edək ki, daha əvvəl Donald Tramp "Washington Post" nəşrinə müsahibəsində bildirib ki, Argentinada keçiriləcək "G20" sammiti çərçivəsində Vladimir Putinlə nəzərdə tutulan görüşü ləğv edə bilər.

ABŞ prezidenti görüşün mümkün ləğvinin Kerç boğazında yaranan vəziyyətlə bağlı olduğunu bildirib. O deyib: "Bu aqressiya mənim xoşuma gəlmir. Ümumiyyətlə, mən aqressiya istəmirəm".

Eyni zamanda, Donald Tramp əlavə edib ki, yaxın vaxtlarda xüsusi xidmət orqanlarından insidentlə bağlı ətraflı hesabat gözləyir.

### AVSTRALİYADA MEŞƏ YANĞINLARI TÜĞYAN EDİR



Avstraliyanın Kvinslend ştatında güclü istilərin səbəb olduğu meşə yanğınları tüğyan edir. "Trend"in məlumatına görə, alovlara qərq olan meşə sahəsi artıq 20 min hektara çatıb. Yanğın fövqəladə vəziyyət həddinə çatıb.

Yerli hakimiyyət orqanları sakinlərin təhlükəsizliyinə artıq zəmanət verə bilmədiklərini bəyan edib. Həmçinin bir sıra rayonlarda təxliyənin mümkün olmadığı bildirilir.

Eyni zamanda, yanğın ərazisində qalanlara mühafizə paltarı geyinmək, pəncərə və qapıların altına nəm dəsmal qoymaq kimi məsləhətlər verilir.

Polis güclü yanğın səbəbindən alov qasırğasının yarana biləcəyi barədə xəbərdarlıq da edib. Bildirilib ki, bu vəziyyətdə xilasetmə əməliyyatları aparmaq qeyri-mümkün olacaq.

Qeyd edək ki, ötən həftənin şənbə günündən davam edən güclü yanğınlarla mübarizəyə 8 təyyarə, o cümlədən 15 min litr su tökmək gücü olan iri yanğın təyyarəsi cəlb edilib. Bununla yanaşı, hadisə nəticəsində çox sayda evin zərər gördüyü qeyd olunur.

### ABŞ QÜVVƏLƏRİ SURİYADA NƏZARƏT MƏNTƏQƏLƏRİ QURACAQ



ABŞ-ın başçılığı altındakı İŞİD əleyhinə koalisiyanın sözçüsü polkovnik Sen Rayan Suriya sərhədində qurulacaq nəzarət məntəqələrinin məqsədinin bu ölkədən qaçıb Türkiyə ərazisinə daxil olmağa cəhd edəcək İŞİD terror təşkilatı silahlılarının qarşısının alınması olduğunu bildirib. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

Bildirilir ki, Sen Rayan video-konfrans vasitəsilə ABŞ-ın Müdafiə Nazirliyinə İraq və Suriyada davam edən İŞİD əleyhinə əməliyyatlar barədə məlumat verib.

Sen Rayan Türkiyə ilə ABŞ-ın Menbiçdə həyata keçirdiyi birgə nəzarət əməliyyatı ilə terror təşkilatlarının bu bölgəyə girməsinin qarşısının alındığını və bölgədə vəziyyətin normallaşmasına töhfə verdiyini qeyd edib.

Polkovnik Rayan sərhəd ərazilərində neçə nəzarət məntəqəsinin qurulacağına dair sualı cavablandırarkən isə bildirib ki, hələ nəzarət məntəqəsi qurulmasa da, hazırda bir neçəsinin yeri artıq müəyyənləşdirilib.

ABŞ-ın rəhbərliyi altında İŞİD əleyhinə koalisiyanın sözçüsü polkovnik Sen Rayan Türkiyənin müdafiə naziri Hulusi Akarın nəzarət məntəqələrilə bağlı reaksiyasına da diqqət çəkib. Bu məntəqələrlə YPG-nin qorunmasının da hədəf götürülüb-götürülmədiyi sualı qarşısında isə bildirib ki, bu, Suriyanın şimal-şərq bölgəsinin təhlükəsizliyi üçün atılan bir addımdır və Türkiyənin narahatlıqları da nəzərə alınır.

Qeyd edək ki, ABŞ-ın müdafiə naziri Ceyms Mettis ötən həftə ABŞ-ın Suriyanın şimal-şərq sərhədində nəzarət məntəqələri quracağını bəyan etmiş və bu məntəqələrin Türkiyəyə yönəldilmiş hər hansı təhdidə qarşı məlumatlandırmaq məqsədilə qurulduğunu bəyan etmişdi.

### YƏMƏNİN XİN BAŞÇISI: HUSİLƏR MÜHARİBƏ TƏRƏFDARIDIR



Yəmənin xarici işlər naziri Xalid əl-Yəmani ölkədəki sülh səylərinin husilərin mövqeyi səbəbindən nəticəsiz qaldığını bildirib. Bu barədə "TRT" telekanalı Yəmənin "SABA" agentliyinə istinadən məlumat yayıb.

Verilən xəbərə görə, Yəmənin XİN başçısı Xalid əl-Yəmani Amerika Birləşmiş Ştatlarının Sənadakı səfiri Metyu Tuellerlə Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda görüşüb.

Xalid əl-Yəmani görüşdə hökumətinin BMT-nin Yəmən üzrə xüsusi nümayəndəsi Martin Qriffitsin Yəmən xalqının humanitar problemlərini aradan qaldırmaq üçün göstərdiyi səy və etdiyi müraciətlərə müsbət yanaşdığını ifadə edib.

Yəmən hökumətinin səylərinin Sənada husi rəhbərliyinin inadkarlığı ilə üzləşdiyini dilə gətirən Xalid əl-Yəmani husilərin sülhü rədd edən, müharibə tərəfdarı olan bir mövqe nümayiş etdirdiklərini bildirib.

Eyni zamanda, Xalid əl-Yəmani beynəlxalq ictimaiyyəti husilərə daha çox təzyiq göstərməyə çağırıb.

Qeyd edək ki, BMT-nin Yəmən üzrə xüsusi nümayəndəsi Martin Qriffits ötən həftə Sənaya səfər edərək husilərin lideri Əbdülmalik əl-Husi ilə görüşmüşdü.

### NAZİR: İRAN DÜNYA TİCARƏTİNDƏN ÖZ PAYINI ALMALIDIR



İran çətin qanunları ləğv etməklə və nəzarətdə diqqətini artırmaqla dünya ticarətindən öz payını almalıdır. "Trend" agentliyinin məlumatına əsasən, bunu İranın iqtisadiyyat və maliyyə naziri Fərhad Dejpəsənd bəyan edib.

Nazirin sözlərinə görə, dünya ticarətində daha çox pay əldə etməyin ən önəmli yolları istehsal ehtiyaclarının asanlıqla ölkəyə daxil olması və buna mane olan idxalın qarşısının alınmasıdır.

Fərhad Dejpəsənd əlavə edərək deyib: "Kağızla olan icazələrin tamamilə ləğv edilməsi, İran Gömrük İdarəsi əməkdaşlarının mükafatlandırılması diqqət mərkəzində durmalıdır".

Verilən xəbərə görə, İran gömrüklərində bir sıra qanun-qaydalar məhsullar və avadanlıqların idxal-ixracının qarşısında duran əsas problemlərdən sayılır. Buna görə də həm idxalçılar, həm də ixracatçılar bu qanunların ləğv edilməsini uyğun hesab edirlər. ■

## “AQROLİZİNQ” AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN
# AÇIQ TENDER ELANI

**Tenderin predmeti:**

**Lot-1.** “450 ton yonca otu, 200 ton küləş (döşənək üçün) və 180 ton qarışıq (qüvvəli) yemlərin satınalınması”

Tenderin qalibi olmuş iddiaçılar satın alınacaq malları tələbata uyğun olaraq “Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin Gəncə təchizat bazasına təhvil verməlidirlər. Tender iştirakçılarına təklif edilir ki, “Dövlət Satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, öz təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, müqavilənin yerinə yetirilmə müddəti və şərtlər toplusunda digər qiymətləndirmə üçün tələb olunan tələblərə uyğunluq.

“Aqrolizinq” ASC qarşısında yerinə yetirilməmiş və ya lazımi səviyyədə yerinə yetirməmiş öhdəliyi olan fiziki və hüquqi şəxslər bu tenderdə iştirak edə bilməzlər.

Maraqlananlar tenderlə əlaqədar əlavə məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs: Həsənova Leyla Tofiq qızı**

**Ünvan: Bakı şəhəri, Bakıxanov qəsəbəsi, Bünyadov küçəsi, 12**

**Tel.: 425-62-18; Faks: 425-64-27**

**E-mail: h.leyla@agrolizing.gov.az**

Tenderin əsas şərtlər toplusu Azərbaycan Respublikasının dövlət dilində tərtib olunur. Zərurət olduqda, beynəlxalq ticarətdə istifadə edilən dillərin birinə tərcümə olunacaqdır. Maraqlananlar əsas şərtlər toplusunu 1000 manat məbləğində iştirak haqqını ödədikdən sonra yuxarıda göstərilən ünvandan ala bilərlər.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürə bilərlər:

*Təşkilat: “Aqrolizinq” ASC-VÖEN:1700382471; H/h: AZ91AİİB38070019443500231102 AZN*

*Kapital Bank Mərkəz filialı-Kod: 200026; VÖEN: 9900003611*

*M/h: AZ37NABZ01350100000000001944;*

*S.W.İ.F.T.: AİİBAZ2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün 7 yanvar 2019-cu il tarixinə kimi aşağıdakı sənədləri (tender təklifi və 2% bank təminatı istisna olmaqla) təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət.*

*- iştirak haqqının ödənilməsi barədə sənəd;*

*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*- iddiaçının vergilər və sosial sığorta ödənişləri üzrə borcunun olmaması barədə müvafiq vergi orqanları və DSMF tərəfindən təsdiq olunmuş sənəd;*

*- iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri barədə məlumat, dövlət qeydiyyatı haqqında şəhadətnamənin, dövlət reyestrindən çıxarışın və nizamnamənin notarial qaydada təsdiq edilmiş surəti.*

Bundan əlavə, Tender təklifi və bank təminatı möhürlənmiş bağlı zərflərdə 15 yanvar 2019-cu il, saat 17:00-a qədər təqdim olunmalıdır.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Tender təklifi tender proseduru keçirildiyi tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır. Tender təklifi dəyərinin 2%-i həcmində bank təminatı verilməlidir. Bank təminatı tender proseduru keçirildiyi tarixdən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır. Bank təminatının qüvvədə müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır.

Bank təminatını və tender təklifini bağlı zərfdə təqdim etməyən iddiaçıların təklifi etibarsız sayılır.

Bağlı zərflər 16 yanvar 2019-cu il tarixdə saat 15:00-da iddiaçının özünün və ya etibarnaməsi əsasında onun səlahiyyətli nümayəndəsinin iştirakı ilə Bakı şəhəri, Bakıxanov qəsəbəsi, Bünyadov küçəsi-12 ünvanında yerləşən “Aqrolizinq” ASC-nin konfrans zalında açılacaqdır.

**TENDER KOMİSSİYASI.**

## MÜDAFİƏ NAZİRLİYİNİN MƏHKƏMƏ-TİBBİ EKSPERTİZA VƏ PATOLOJİ ANATOMİYA MƏRKƏZİNİN TİBB AVADANLIQLARININ KÖHNƏ BİNADAN SÖKÜLÜB, DİGƏR BİNADA QURAŞDIRILMASI VƏ KOLİBRASİYA EDİLMƏSİ İŞLƏRİNİN, HƏMÇİNİN MÜXTƏLİF TİBB VƏ UPS QOVŞAQLARINA DAİR AVADANLIQLARIN SATINALINMASI ÜZRƏ
# AÇIQ TENDER ELAN EDİR

**Tender 3 lot üzrə keçirilir:**

**1-ci lot: Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Mərkəzinin tibb avadanlıqlarının köhnə binadan sökülüb, digər binada quraşdırılması və kolibrasiya edilməsi;**

**2-ci lot: Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Mərkəzi üçün tibbi avadanlıqlar;**

**3-cü lot: UPS qovşaqları üçün avadanlıqlar.**

Tender iştirakçıları öz tender təkliflərini möhürlənmiş və imzalanmış şəkildə ikiqat zərflərdə təqdim etməlidirlər.

Müqaviləni yerinə yetirmək üçün, tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər, aşağıda göstərilən məbləğdə iştirak haqqını köçürdükdən sonra **4 yanvar 2019-cu il tarixə, saat 12:00-dək,** hər gün (istirahət və bayram günləri istisna olmaqla) saat 10:30-dan 12:00-dək, Azərbaycan dilində tərtib olunmuş satınalmanın əsas şərtlər toplusunu ala bilərlər. Sənədlərin təqdimi (prosedurda iştirak etməsi) iddiaçı və ya onun müvəkkil etdiyi şəxs (səlahiyyəti notarial qaydasında təsdiq edilməlidir) tərəfindən həyata keçirilir.

İştirak haqqının məbləği:

**1- ci lot: Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Mərkəzinin tibb avadanlıqlarının köhnə binadan sökülüb, digər binada quraşdırılması və kolibrasiya edilməsi üzrə - 200 manat;**

**2- ci lot: Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Mərkəzi üçün tibb avadanlıqları üzrə -1500 manat;**

**3- cü lot: UPS qovşaqları üçün avadanlıqlar üzrə - 500 manat.**

*Hesab: Dövlət Xəzinədarlıq Agentliyi, kod 210005, VÖEN 1401555071, müxbir hesabı № AZ 41 NABZ 01360100000000003944. S.W.İ.F.T. BİK: CTREAZ 22; Azərbaycan Respublikasının Müdafiə Nazirliyi*

*Hesab №-si AZ84CTRE00000000000002058501, VÖEN 1300162621, Büdcə səviyyəsinin kodu 142319 Fond 3. Müdafiə Nazirliyinin tenderində iştirak haqqı.*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Satınalan təşkilat iddiaçıların ixtisas göstəricilərinin müəyyən edilmiş tələblərə uyğunluğunu açıq tenderin əsas şərtlər toplusunda və yaxud təkliflərin cəlb edilməsinə dair digər sənədlərdə şərh edilmiş ixtisas meyarlarına əsasən qiymətləndirəcəkdir.

**Tender təkliflərinin tamlığı təmin olunduğu halda tender təkliflərinin qiymətləndirilməsi satınalınan malların hər bir adı üzrə ayrılıqda aparılacaqdır.**

**Tender təkliflərində lotlar üzrə təklif olunacaq malların adları sıra ardıcıllığı ilə, bütün parametrləri daha dəqiq, aydın eyni zamanda əsas şərtlər toplusunun siyahısında göstərilən tələbata uyğun göstərilməlidir. Əsas şərtlər toplusuna əlavə edilmiş siyahıda tibbi avadanlığın istehsal olunduğu ölkə və ya firmanın adı göstərilərsə, iddiaçı yalnız həmin tələblərə uyğun məhsulları təklif etməlidir.**

**Qeyd olunan tələblərə uyğun təqdim edilməyən tender təklifləri qiymətləndirilmədən kənarlaşdırılacaqdır.**

Satınalan təşkilat satınalma prosedurunun keçirildiyi zaman iddiaçının öz ixtisas göstəriciləri haqqında saxta məlumat təqdim etdiyini müəyyən edərsə, həmin iddiaçı tenderdən kənarlaşdırılacaqdır.

Hər hansı tender təklifinin qiyməti satınalınan malların ehtimal olunan qiymətindən əhəmiyyətli dərəcədə fərqlənərsə, satınalan təşkilat “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununun müddəalarını rəhbər tutaraq həmin təklifi rədd edəcək.

Bütün iddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün ərizə (ərizədə müəssisənin adı, yerləşdiyi ünvan, poçt indeksi, telefon nömrəsi, rəhbərin adı, soyadı göstərilməklə möhürlənmiş və imzalanmış olmalıdır);*

*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi (əsli);*

*- tender təklifi (tender proseduru keçirildiyi tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*- tender təklifi qiymətinin 3 faizi həcmində bank təminatı (tender proseduru keçirildiyi tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır) tender təklifi ilə birlikdə təqdim olunur. Bank təminatını tender zərfində təqdim etməyən iddiaçının tender təklifi etibarsız sayılır və qiymətləndirməyə buraxılmır.*

*Tender təklifinin təminatı bankların filialları və ya bölmələri tərəfindən verildiyi halda, tender təklifinin təminatı filialları və ya bölmələri təsis edən bankların idarə heyəti tərəfindən təsdiq olunmalıdır.*

*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış (müvafiq orqanlardan);*

*- iddiaçının son bir ilə (əgər daha az müddətdə fəaliyyət göstərirsə bütün fəaliyyət müddətində) maliyyə vəziyyəti haqqında bank arayışı;*

*- iddiaçının son bir ilə fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatlarının surəti;*

*- işləri yerinə yetirmək üçün analoji işlərdə təcrübəsi, iddiaçının potensial texniki və kadr imkanları haqqında rəsmi məlumat, mallara aid mənşə şəhadətnamələrin və uyğunluq sertifikatlarının, malların tədarükü üçün digər tərəflərlə bağlanmış müqavilələrin təsdiq olunmuş surətləri;*

*- iddiaçının tam adı, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri barədə, həmçinin fəaliyyəti ilə bağlı ətraflı məlumatlar;*

*- iddiaçının hüquqi statusunu təsdiq edən sənədlər və müəssisənin nizamnaməsi (notarial qaydada təsdiq edilmiş surəti).*

İddiaçılar tələb olunan sənədləri bir nüsxədə hazırlayıb, tenderdə iştirak etmək üçün ərizə ilə birlikdə **04 yanvar 2019-cu il tarixə, saat 12:00-dək,** tender təkliflərini isə iki nüsxədə (əsli və surəti) **14 yanvar 2019-cu il tarixə saat 12:00-dək,** ikiqat zərfdə bağlanmış və möhürlənmiş şəkildə Bakı şəhəri, Parlament prospekti 3, Müdafiə Nazirliyinin yanındakı 4 saylı doqquzmərtəbəli binanın birinci mərtəbəsində olan Tender Komissiyasına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan və ya göndərilən tender təklifləri qəbul olunmayaraq geri qaytarılacaqdır.

Tender zərflərinin açılması proseduru Bakı şəhəri, Yasamal rayonu, Süleyman Dadaşov küçəsi, Bakı-52, hərbi şəhərcik, 112 nömrəli inzibati binada **15 yanvar 2019-cu il tarixdə saat 10:00-da** keçiriləcəkdir.

Tender “Dövlət satınalmaları haqqında” Qanunun tələblərinə uyğun keçiriləcəkdir.

Tender haqqında əlavə məlumatları aşağıdakı ünvanda almaq olar:

**Bakı şəhəri, Parlament prospekti 3,**
**Müdafiə Nazirliyinin Tender Komissiyası.**
**Əlaqələndirici şəxslər: O.Yaqubov, B.Cabbarov.**
**Tel.: (012) 539-38-45; 539-80-60 daxili: 10401, 10241.**

**Müdafiə Nazirliyinin Tender Komissiyası.**

---

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti

LOT 1 - 2019-cu il üçün Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin tələbatına uyğun azqiymətli avadanlıqların alınması və təmiri;

LOT 2 - 2019-cu il üçün Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin tələbatına uyğun bərk inventarların satınalınması üzrə

AÇIQ TENDERƏ DƏVƏT EDİR

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat zərfdə, yazılı surətdə təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, iddiaçının maliyyə və texniki imkanları, istehsalçı və ya onun rəsmi distribyuterinin olması, analoji müqavilələrin icrasına dair təcrübəsi, təklifin texniki tələblərə uyğunluğu, texniki xidmətlərin göstərilməsi, istismara verilən zəmanət müddəti.

Tender predmeti haqqında ətraflı məlumat tenderin əsas şərtlər toplusunda verilir. Maraqlananlar tenderin əsas şərtlər toplusunu (Azərbaycan dilində hazırlanmış) tenderdə iştirak etmək üçün yazılı müraciət etdikdən sonra aşağıda qeyd olunan hesaba Lot 1 üzrə 200 (iki yüz) manat, Lot 2 üzrə 200 (iki yüz) manat dəyərində iştirak haqqı ödəməklə Bakı şəhəri, Binəqədi rayonu 3123-cü məhəllə, Binəqədi şosesi 202 (əlaqələndirici şəxs: Gülsüm İsmayılova, Telefon: (+99412) 5656118, daxili 255) ünvanından ala bilərlər.

Hesab:
AZ38CTRE00000000000004518570
VÖEN: 1700760271
Bank: DXA
Filialın kodu: 210005
VÖEN: 1401555071
SWİFT: CTREAZ22
M/h: AZ41NABZ01360100000000003944
Büdcə səviyyə kodu: 7
Büdcə təsnifat kodu: 142340.

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (rəsmi blankda və möhürlə təsdiq olunmuş qaydada) təqdim etməlidirlər.

1. Tenderdə iştirak etmək üçün yazılı ərizə;

2. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;

3. Tender təklifi (tender təklifləri zərflərinin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);

4. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 60 (altmış) bank günü çox olmalıdır);

5. Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:

Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanından arayış;

Malgöndərənin (podratçının) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;

Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti haqqında bank arayışı;

Malgöndərənin (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır).

Malgöndərənlər (podratçılar) 1, 2 və 5-ci bəndlərdə qeyd olunan sənədləri 04 yanvar 2019-cu il saat 10.00-a, 3 və 4-cü bəndlərdə göstərilən sənədləri 14 yanvar 2019-cu il, saat 10.00-a qədər yuxarıda qeyd olunan ünvana təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Tender təklifi zərfləri 15 yanvar 2019-cu il tarixində saat 15.00-da Bakı şəhəri, Binəqədi şosesi 202, Dövlət Miqrasiya Xidmətinin inzibati binası ünvanında açılacaqdır.

Tender Komissiyası.

## Azərbaycan Respublikası Gəncə Dövlət Universiteti 2018-ci il üçün
# KOTİROVKA SORĞUSU ELAN EDİR

**1.** Maddə 225 200 Yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin satınalınması

**2.** Maddə 221 310 İdarənin digər xərclərin satınalınması

**3.** Maddə 221 320 Cari təmir

**4.** Maddə 226 200 Abadlıq işləri

Kotirovka sorğusunda iştirak etmək üçün istəyənlər sənədləri 07 dekabr 2018-ci il saat 16.00 tarixinədək Gəncə şəhəri, Heydər Əliyev 429 ünvanında yerləşən Gəncə Dövlət Universitetinə təqdim etməlidirlər.

**Əlaqə telefonu:** *022-256-19-54*

## Şabran Rayon Statistika İdarəsi
# KOTİROVKA SORĞUSU ELAN EDİR

**1.** Bərk inventarların satınalınması

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 06.12.2018-ci il, saat 17:00 tarixinədək qəbul olunur.

Təkliflər 07.12.2018-ci il saat 10:00 tarixində açılacaqdır.

**Ünvan:** *Şabran ş., Heydər Əliyev prospekti 86*

**Tel.:** *(023) 353-27-88*

**Əlaqələndirici şəxs:** *Reyhan Fətəliyeva*

**Tender Komissiyası.**

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ
RESPUBLİKA
REKLAM VƏ ELAN XİDMƏTİ
441-20-23

Beyləqan rayonu, Dünyamalılar kənd sakini mərhum İsmayılova Lidya İvanovna və ailə üzvlərinin xüsusi mülkiyyətində olan və həmin kənddə yerləşən 2,53 ha torpaq sahəsinin torpağın mülkiyyətə verilməsinə dair JN 1093 (kod: 60700068 nömrəli) Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

Bildiriş. Kənd Təsərrüfatı Nazirliyi kənd təsərrüfatı məhsullarının satışı üçün yarmarkaların təşkili ilə bağlı xidmətlərin göstərilməsinin təkliflər sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (+994 12) 498 61 75 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Əlaqələndirici şəxs: Rövşən Əliyev. Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 07 dekabr 2018-ci il saat 18:00 tarixinədək qəbul olunur. Ünvan: Bakı şəhəri, Üzeyir Hacıbəyov küç. 80, (Hökumət evi), 7-ci mərtəbə.

Bildiriş. Kənd Təsərrüfatı Nazirliyinin xidməti minik avtomobillərinə 2018-ci il üçün nəzərdə tutulan texniki xidmətin göstərilməsi və BMW-3201 markalı minik avtomobilləri üçün təkərlərin kotirovkalar sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (+994 12) 498 61 75 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Əlaqələndirici şəxs: Rövşən Əliyev. Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 07 dekabr 2018-ci il saat 18:00 tarixinədək qəbul olunur. Ünvan: Bakı şəhəri, Üzeyir Hacıbəyov küç. 80, (Hökumət evi), 7-ci mərtəbə.

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Lənkəran ərazi idarəsi tərəfindən Lənkəran şəhərinin Fikrət Məmmədov küçəsi, 10 nömrəli binada yerləşən və Kərimova Asyabəyim İnşalla qızına məxsus olan 6 saylı mənzilə verilmiş Daşınmaz Əmlakın Dövlət Reyestrindən çıxarış (seriya MH; N 0002546; reyestr N 802011000463-05101-093001; qeydiyyat N 220701682; qeydiyyat tarixi: 10 may 2007-ci il) və texniki pasport (inventar N 769; reyestr N 802011000463-05101-093001; tərtib edilmə tarixi: 10 may 2007-ci il) itdiyi üçün etibarsız sayılır.

Astara rayon aqrar islahat komissiyasının 2 iyul 1999-cu il tarixli 18 nömrəli qərarı ilə Astara şəhərinin M.Əzizbəyov küçəsinin (keçmiş Şəhriyar kəndi) sakini İsayev Cabir Siyab oğluna verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN 239; KOD 80101004) itdiyi üçün etibarsız sayılır.

AzMİU-nun nəzdindəki İnşaat Kolleci tərəfindən Mustafazadə Murad Azər oğluna verilmiş 04/1325 saylı tələbə bileti itdiyi üçün etibarsız sayılır.

AzMİU-nun nəzdindəki İnşaat Kolleci tərəfindən İskəndərov Firad Rəmaləddin oğluna verilmiş 04/1161 saylı tələbə bileti itdiyi üçün etibarsız sayılır.

AzMİU-nun nəzdindəki İnşaat Kolleci tərəfindən Əliyeva Aygün Rasim qızına verilmiş 01/0677 saylı tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Süleymanov Emil Əlirza oğlunun adına Hüquqların Dövlət Qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət Reyestri tərəfindən Torpağa verilən MA 0047936 Çıxarış, torpaq sahəsinin planı və ölçüsü itdiyi üçün etibarsız sayılır (ünvan: Nefçala r-nu, Şirvanlı kəndi).

## Fövqəladə Hallar Nazirliyi Maddi-Texniki Təchizat İdarəsi müxtəlif növ it yemlərinin satınalınmasını təkliflər sorğusu üsulu ilə həyata keçirir.

Maraqlanan təşkilatlar (012) 512 47 62 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 04 dekabr 2018-ci il saat 17:00-a kimi qəbul olunur.

**Ünvan:** *Bakı şəhəri, Xocahəsən-Lökbatan yolu, 7-ci km qərbi*

**Tender Komissiyası.**

## Azərbaycan Respublikasının Təhsil Nazirliyiyanında Peşə Təhsili üzrə Dövlət Agentliyi Dəftərxana ləvazimatlarının satınalınması ilə əlaqədar
# KOTİROVKA SORĞUSU ELAN EDİR

Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 03 dekabr 2018-ci il saat 13:00 tarixinədək qəbul olunur.

Maraqlanan təşkilatlar (012) 5991277 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

**Ünvan:** *Bakı ş., Nərimanov r., Ə.Orucəliyev küçəsi 61.*

**Tender Komissiyası.**

## Mərkəzi Muğan Qış otlaqlarının Su Təminatı Sistemlərinin İstismarı İdarəsi 2019-cu ildə cari və əsaslı təmir işlərini yerinə yetirmək məqsədilə tikinti materiallarının satınalınması məqsədilə
# AÇIQ TENDER ELAN EDİR

**Lot-1.** Cari və əsaslı təmir işləri üçün tikinti materiallarının satınalınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üçün 60 manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu İmişli rayonu, Aranlı kəndində yerləşən Mərkəzi Muğan Qış otlaqlarının Su Təminatı Sistemlərinin İstismarı İdarəsindən (əlaqələndirici şəxs: E.Ə.Ağaşov, telefon: 02124-41168) ala bilərlər.

*Təşkilat: Mərkəzi Muğan QOSTSİİ*
*Hesab: AZ49AİİB32051019446700201167*
*VÖEN: 5500116521*
*Bank: Kapital bank ASC-nin İmişli filialı*
*Kod: 200673*
*VÖEN: 9900003611*
*Müxbir hesabı: AZ37NABZ01350100000000001944*
*S.W.İ.F.T.BİK-AİİBAZ2x*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*-tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*-tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 günü qüvvədə olmalıdır);*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*

*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*-müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 08 yanvar 2019-cu il saat 17:00-a qədər, tender təklifi və və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 17 yanvar 2019-cu il saat 17:00-a qədər İmişli rayonu, Aranlı kəndində yerləşən Mərkəzi Muğan Qış otlaqlarının Su Təminatı Sistemlərinin İstismarı İdarəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 18 yanvar 2019-cu il tarixdə saat 11:30-da yuxarıda göstərilən ünvanda açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

## İmişli Suvarma Sistemləri İdarəsi
# AÇIQ TENDER ELAN EDİR

**Tender 2 (iki) lot üzrə keçirilir:**

**Lot-1.** 2019-cu il üçün avtomaşın, mexanizmlər üçün ehtiyat hissələri və mexaniki avadanlıqların satınalınması.

**Lot-2.** Əsaslı və cari təmir üçün mal-materialların satınalınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər hər lot üzrə 30 manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu İmişli rayonu, Qaradonlu kəndində yerləşən İmişli Suvarma Sistemləri İdarəsindən (əlaqələndirici şəxs: A.Əliyev) ala bilərlər.

*Təşkilat: İmişli Suvarma Sistemləri İdarəsi*
*Hesab: İmişli YXO 32051019446700201167*
*VÖEN: 5500116521*
*Bank: “Kapital Bank”ın İmişli filialı*
*Kodu: 200673*
*VÖEN: 9900003611*
*Müxbir hesabı:*
*AZ37NABZ01350100000000001944 (AZİPS)*
*AZ81NABZ01350100000003001944 (XÖHKS)*
*S.W.İ.F.T. BİKAİİBAZ 2X*

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*-tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*-tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*

*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*-müvafiq mallar işlər üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender prosedurunda iştirak etmək istəyən iddiaçılar “Dövlət satınalmaları haqqında” qanunun 6-cı maddəsinin tələblərinə uyğun olaraq müvafiq sahədə peşəkarlığı, təcrübəsi, texniki və maliyyə imkanları, işçi qüvvəsi, idarəetmə səriştəsi, etibarlılığı və sairə barədə sənədlər təqdim etməlidirlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 15 yanvar 2019-cu il saat 18:00-a qədər, tender təklifi, bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 24 yanvar 2019-cu il saat 18:00-a qədər İmişli rayon Qaradonlu kəndində yerləşən İmişli Suvarma Sistemləri İdarəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 25 yanvar 2019-cu il saat 11:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

## ALLAH RƏHMƏT ELƏSİN

**“Respublika” qəzetinin kollektivi tanınmış təhsil eksperti, əməkdar müəllim, professor**
**ƏJDƏR AĞAYEVİN**
**vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.**

**AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitunun Cənubi Azərbaycan Ədəbiyyatı şöbəsinin müdiri, professor Teymur Əhmədov və şöbənin elmi əməkdaşları, iş yoldaşları elmi işçi Lətifə Mirzəyevaya, qardaşı**
**FÜZULİ MÜSLÜM oğlunun**
**vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

Baş redaktor
Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:
İqtisadiyyat və islahatlar redaksiyası: 539-95-51;
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: 538-55-20;
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: 539-26-18;
Humanitar siyasət redaksiyası: 538-25-70;
Xəbərlər redaksiyası: 538-61-02;
İctimai rəy və sosial problemlər redaksiyası: 539-95-51; 538-43-41 tel/faks;
Qəbul otağı: 538-25-70;
Katiblik: 538-25-70;
Reklam və elan xidməti: 441-20-23.



● Redaksiyanın ünvanı:
AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
E-mail: resp@azdata.net
www.respublica-news.az
“Respublika” qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
Kamal İBADOV

● Çapa imzalanmışdır
28.11.2018